**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏİDƏ BƏHRAM QIZI HƏSƏNZADƏ**

# AZƏRBAYCAN RESPUBLİKASINDA AİLƏ İNSTİTUTUNUN KONSTİTUSİYA HÜQUQİ STATUSU
## (beynəlxalq hüquqla müqayisəli təhlil)

**İxtisas: 5607.01 – «Konstitusiya hüququ və bələdiyyə hüququ»,**
**5603.01 – «Beynəlxalq hüquq; insan hüquqları»**

**Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | **Hüquq elmləri doktoru, professor**<br>**Qurbanov Habil Surxay oğlu** |
| **Rəsmi opponentlər:** | **Hüquq elmləri doktoru, professor**<br>**Əliyev Namiq Həsən oğlu** |
| | **Hüquq elmləri doktoru**<br>**Əliyev Şəhriyar İbrahim oğlu** |
| | **Hüquq elmləri doktoru**<br>**Qaracayev Ceyhun Yasinəli oğlu** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikası Milli Aviasiya Akademiyasının «Hüquqşünaslıq» kafedrası** |

Dissertasiya işinin müdafiəsi 2 iyul 2018-ci il tarixdə saat 10.00 da Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş B/D 02.013 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «__» «_________» 2018-ci il tarixdə göndərilmişdir.

**B/D 02.013 Dissertasiya**
**Şurasının elmi katibi,**
**h.ü.f.d., dosent:** **Ə.Q.Məmmədov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Bütün ziddiyyətləri və gözəllikləri ilə bir vəhdət təşkil edən dünyamız təbiət, insan və ailə təməli üzərində bərqərar olmuşdur. Bəşəriyyət tarixində və müasir sivil dünyada bu gün cəmiyyət, şəxsiyyət və dövlət üçün ailə qədər dəyərli, ailə qədər əhəmiyyətli və ailə qədər geniş təsir imkanlarına malik olan insan birliyi yoxdur. Müasir Azərbaycan Respublikasında ailə institutu, öz ictimai-siyasi, sosial və hüquqi əhəmiyyətinə, strukturuna, funksiyalarına, cəmiyyətin inkişafının əsas tendensiyalarının müəyyən edilməsinə, bu günkü yüksək inkişafına, sosiomədəni mühitə göstərdiyi fəal təsir effektlərinə, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanmasına, inkişafına, nəsildən-nəsilə ötürülməsinə, varisliyin təmin edilməsinə əhəmiyyətli təsir göstərən fenomenal sosiomədəni və hüquqi təsisatdır. Nikah isə kişi ilə qadının ailə qurmaq məqsədilə könüllü olaraq yaratdıqları ər-arvad birliyinin müvafiq icra hakimiyyəti orqanlarında qeydə alınan rəsmiləşdirilməsidir[1]. İnsan birliyinin ən qədim və ən əhəmiyyətli formalarından biri olan ailə, insan nəslinin davamlı istehsalı və inkişafı üçün əvəzsiz sosial rol oynamışdır. Ailənin təşəkkülünün və inkişafının əsasında qadının və kişinin bir-birinə olan təbii-fizioloji tələbatı, bioloji vəhdəti, sosial həmrəyliyi, nəsilartırmaq marağı dayanır. Bu, bir sosiomədəni proses olaraq, ən qədim dövrdən başlayaraq davam etmiş, təbii və qanunauyğun bir təzahürə çevrilmişdir. Maddi və mənəvi tələbatların ödənilməsində, maddi nemətlər istehsalında insanın əvəzsiz rolu vardır. Ailənin funksional vəzifələrinə daxil olan çoxsaylı fəaliyyət, maraq və məqsəd tarixin sonrakı inkişaf mərhələlərində yeni-yeni komponentlərlə zənginləşsə də, lakin nəsil artırmaq motivi öz aktuallığı ilə daim gündəmdə qalmışdır. Çünki qadın və kişi münasibətləri, onların bioloji vəhdəti təmin olunmadan, insan nəslinin təşəkkülünü və inkişafını təmin etmək mümkünsüz olardı. Ailə – qadın və kişi birliyinin təşkilati-hüquqi əsası kimi bioloji, sosial, iqtisadi, hüquqi, mənəvi, əxlaqi, siyasi və beynəlxalq mahiyyət daşıyır. Cəmiyyətin və ictimai-siyasi həyatın əsasında məhz insan və ailə fenomeni dayanır. İnsan, sosial varlıq olmaqla, cəmiyyətin və ailənin yaradıcısı və istənilən sosial-iqtisadi sistemin əsas aparıcı qüvvəsidir. T.Hobbs göstərir ki, cəmiyyət strukturunun ilkin hüceyrələri – insanlar olmadan ailə və dövlət ola bilməzdi. İnsan təbiətlə cəmiyyəti birləşdirən bir həlqədir[2]. İnsan bütün sosial dəyərlərin ölçüsüdür. K.Marks təbirincə desək «İnsanın mahiyyəti, mücərrəd deyil, ayrıca fərdə xasdır. Əslində o bütün ictimai münasibətlərin məcmusudur»[3].

Cəmiyyətin və insanlığın xüsusi önəm verdiyi dəyərlər sistemində ailə son dərəcə böyük və əvəzsiz əhəmiyyətə malikdir. Bu insanların şəxsi və ictimai həyatının müxtəlif sahələrindəki fəaliyyətlərində özünü göstərir, mürəkkəb sosiomədəni, sosial, iqtisadi, demoqrafik və digər ictimai amillərlə şərtlənərək, təşkilati və tənzimləyici funksiyalar yerinə yetirir. Ailə-nikah və ailə-qohumluq münasibətlərinin, davranış mədəniyyətinin formalaşmasını, düzgün tənzim edilməsini, inkişafını, qorunub

---

[1] Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., Hüquq yayın evi, 2016. S.20-21
[2] 100 великих книг. М.: Вече, 2004, с.120-121.
[3] Маркс К., Энгельс Ф. Соч., 2-е издание. Т.2. М., 1974, с.265-267

saxlanmasını, nəsildən-nəslə ötürülməsini ailə təmin edir. Qlobal mənada ailənin iki ən mühüm səciyyəvi xüsusiyyəti vardır. Bunlardan birincisi: ailənin - ər-arvad, valideynlər və uşaqlar arasında qarşılıqlı münasibətlərin tarixən formalaşan konkret sistemi olmasında; ikincisi isə: ailənin yaradılması, uşaqların doğulması və tərbiyə edilməsi məqsədilə təsis edilən; üzvlərinin nikah, qohumluq və övladlığa götürmə ilə bağlı olan münasibətlərə, məişət və təsərrüfat ümumiliyinə və qarşılıqlı məsuliyyətə əsaslanan, millətin xüsusi sosiomədəni kodu ilə şərtlənən, cəmiyyətdə, ictimai-siyasi və dövlət həyatında sosial qrup və insan birliyi kimi səciyyəvi xüsusiyyətləri ilə fərqlənməsində ifadə olunur[1].

Cəmiyyətin inkişafının əsas aparıcı qüvvəsi, maddi nemətlər istehsalının, elmin, mədəniyyətin və sivilizasiyanın yaradıcısı olan insan, bioloji fərd olaraq ailələrdə doğulur, böyüyür, sosial mühitdə şəxsiyyət kimi yetişir, başqaları ilə birləşir, dövlət, hakimiyyət, din yaradır, insan nəslinin və cəmiyyətin varlığını və inkişafını təmin edir. Cəmiyyət, tələbat, təbii zərurət və bioloji varlıqdan doğan insanların tarixən təşəkkül tapdığı birgə fəaliyyət nəticəsində meydana gəlir. O özünü qorumaq və birgə maraqları təmin etmək üçün dövlət yaradır, ona hakimiyyət və legitim güc verir. Cəmiyyətin əsas özəyi olan ailənin ən başlıca hamisi və qayğıkeşi dövlətdir. Dövlət, cəmiyyətin məhsuludur, onun tələblərinə, maraqlarına, məqsəd və iradəsinə xidmət edir. Dövlət, cəmiyyətin kütləvi və legitim hakimiyyət gücüdür. K.Marks göstərirdi ki, dövlət cəmiyyətin bir hissəsi, lakin nisbətən müstəqil hissəsidir. Çünki ictimai münasibətlərin nizamlanmasında və cəmiyyətin təbiətindən irəli gələn ümumi işlərin həllində onun öz rolu vardır[2]. Dövlətin yaranması ilə insanlar yaranışdan sahib olduqları anadangəlmə təbii hüquqlarından, həm də vətəndaş hüquqlarından istifadə edirlər. Dövləti inkişaf etmiş və böyümüş ailə birliyi də hesab etmək olar. Ailənin funksiyaları olduqca geniş, rəngarəng və məsuliyyətli elementləri əhatə edir. Ailənin statusu bütöv bir sistem olaraq öz tərkibində valideynləri, uşaqları, digər yaxın qohumları sistemaltı element kimi birləşdirir ki, onunda əsasında nikah əqdi və qan qohumluğu dayanır[3].

Ailənin rolu, xidmətləri, funksiyaları, gücü, qüdrəti və təsir dairəsi çox genişdir. Ailə, cəmiyyətdən, dindən, dövlətdən, hüquqdan daha erkən meydana gəlmiş və uzun bir təkamül yolu keçmişdir. Həyatda mövcud olan bütün dəyərlərin yaranmasında və inkişafında insanın və insan birliyi olaraq ailənin mühüm rolu olmuşdur. Tarixən ailənin formaları, tipləri, quruluşu, funksiyaları, məqsədi və vəzifələri, müəyyən dəyişikliklərə məruz qalsa da, lakin onun mahiyyəti və əhəmiyyəti, əsasən sabit qalmışdır. Məhsuldar qüvvələrin tərəqqisi, əmək bölgüsünün və sinifli cəmiyyətin yaranması, dövlətin yeni-yeni formalarının, ictimai-iqtisadi formasiyaların tədricən dəyişməsinə baxmayaraq, ailə institutu bu günə qədər öz varlığını qoruyub saxlamışdır. Ailə adətlərin və ənənələrin, vərdişlərin və rəftar normalarının, qayda-qanunun, dinin, dövlətin, hakimiyyətin,

[1] Агеева А.В. Конституционно-правовой статус семьи в Российской Федерации: автореф.дисс. …канд.юрид.наук. М., 2014. С.9-12

[2] Маркс К. Капитал. С.1-545. / Маркс К., Энгельс Ф. Соч., 2-е издание. Т.25. ч.1, 1961, с.422-427

[3] Karl Marks, Fredrix Engels. Seçilmiş əsərləri. II c. B., 1953. S.182-308

mədəniyyətin, sivilizasiyanın yaranmasında, inkişafında, milli mənlik şüurunun formalaşmasında və azərbaycançılıq ideologiyasının varislik əsasında nəsildən-nəsilə ötürülməsində böyük rol oynayır[1]. Ailə münasibətlərinə müsbət yönüm verən dəyərlər sistemi, təsəvvürlər, prioritetlər və stereotiplər, milli mentalitetin və milli xüsusiyyətlərin əsasını, özünəməxsusluğunu, etnik kodunu təşkil edir və cəmiyyətdə ailənin rolunun əhəmiyyətli olduğunu şərtləndirir. Ailə və nikah forma və məzmun etibarilə olduqca rəngarəngdir, oxşar və fərqli cəhətləri ilə səciyyəvidir. Nikah, ailə institutunun mühüm bir komponenti, onun tərkib hissəsi və hüquqi əsasıdır. Buna görə də nikah ləğv olunduqda ailə birliyi də dağılmış olur. Ailə ölkədə sabitliyin və tərəqqinin əsasında dayanır. Ailənin rolu, funksiyaları, əhəmiyyəti və dəyəri nəzərə alınaraq, onun hüquqi statusunun konstitusiyada təsbiti təmin edilmişdir. Bu da onunla əlaqədardır ki, hüquqi, dünyəvi və demokratik dövlət quran hər hansı bir ölkədə konstitusiya ən ali normativ-hüquqi akt hesab edilir. Onun yaradılmasında ratifikasiya olunmuş beynəlxalq müqavilələrdən və beynəlxalq hüquq normalarından istifadə edilir. Müasir cəmiyyət müstəqil dövlətsiz, demokratik hüquqi dövlət isə konstitusiyasız mümkün olmur. Dünyada gedən qloballaşma prosesləri cəmiyyətin tarixən formalaşmış bütün təsisatlarına, o cümlədən ailəyə əhəmiyyətli təsir göstərmiş, ailə və dəyərlər sistemi ilkin mənasını az da olsa dəyişmiş, ailəyə, qadına və uşağa olan bəşəri münasibət fərqli səciyyə daşımağa başlamışdır. Azərbaycan ailəsinin ənənəvi dəyərlərinin qorunub saxlanması və inkişafı, hazırki mərhələdə dövlətimiz qarşısında duran prioritet vəzifələrdən hesab edilir. Müstəqillik illərində Ulu Öndər Heydər Əliyev[2] və onun layiqli varisi, Respublika prezidenti, cənab İlham Əliyev ölkəmizdə ailənin dinamik inkişafı, ailə münasibətlərinin hüquqi tənzimlənməsi və konstitusiyada təsbiti sahəsində ardıcıl və sistemli tədbirlər həyata keçirmiş, ailə dövlət qayğısı ilə tam əhatə olunmuşdur. Referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında «ailə» və «nikah» institutunun təsbiti təmin edilmiş, bununla bağlı çoxsaylı məcəllələr və normativ-hüquqi aktlar hazırlanıb qəbul edilmişdir. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və ISESCO-nun Xoşməramlı Səfiri, respublikanın Birinci Vitse-prezident Mehriban xanım Əliyeva ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə daim böyük diqqət yetirmiş və bu xeyirxah missiya bu gün də davam etdirilməkdədir[3].

Bir institut olaraq ailənin konstitusiya hüquqi statusu ilk dəfə olaraq, Ulu Öndər Heydər Əliyevin səyi ilə, 1978-ci il Azərbaycan SSR-nin Konstitusiyasında öz ifadəsini tapmışdır. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli referendumu ilə qəbul edilmiş ilk milli Konstitusiyasında ailənin statusu təsbit olunmuşdur[4]. Sonralar

---

1 Karl Marks, Fredrix Engels. Seçilmiş əsərləri. 2 clddə, II cild. B, «Azərbayycan Dövlət Nəşriyyatı», 1953. S.182-308

2 Əliyev H. Müstəqilliyimiz əbədidir. 46 clddə. B., Azərnəşr, 1997-2013

3 İbrahimov Z. Heydər Əliyev Fondu: şəxsiyyətin fenomeni və milli-mənəvi dəyərlər. B., Çıraq, 2013. 110-118

4 Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. B., 1994. S.7-8

keçirilən üç referendumun nəticəsi olaraq konstitusiya normalarının daha da təkmilləşdirilməsi, beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, çoxsaylı məcəllələrin, normativ-hüquqi aktların qəbul edilməsi təmin olunmuşdur. MDB məkanında ilk dəfə olaraq Azərbaycan Respublikasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, ailənin və uşaqların sosial rifahının yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, gənc ailələrin inkişafı, elmin və təhsilin müasirləşməsi, iş yerlərinin yaradılması, sosial mənzil tikintisinin genişləndirilməsi və s. haqqında kompleks, sistemli və ardıcıl Dövlət Proqramları hazırlanıb, həyata keçirilmişdir. Ölkəmiz ailə və ailə münasibətləri ilə bağlı bütün beynəlxalq müqavilələrə qoşulmuş və öz milli qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etmişdir[1].

Ailənin hüquqi statusunun konstitusiyada təsbit edilməsi, ailəyə verilən böyük önəmin və dəyərin hüquqi ifadəsidir[2]. Dünyada baş verən qlobal dəyişikliklər, ictimai-siyasi həyatda, mənəvi-əxlaqi mühitdə, dəyərlər sistemində, ailə münasibətlərində köklü dəyişikliklərə, böhrana səbəb olmuş, bütün bu proseslər Azərbaycan ailəsinə də təsirsiz ötüşməmişdir. Öz səciyyəvi xüsusiyyətləri, milli, mənəvi və əxlaqi dəyərləri, tarixən formalaşmış müsbət yönümləri ilə həmişə böyük maraq kəsb edən və diqqət çəkən «Azərbaycan ailə modeli» son illər müəyyən dəyişikliklərə məruz qalmışdır. Ailələrin dağılması nəticəsində uşaqlar valideyn himayəsindən məhrum olmuş, doğum azalmış, ailə zorakılığının, qadınlar və yetkinlik yaşına çatmamışlar arasında cinayətkarlıq artmışdır[3]. Bu proseslərin elmi-nəzəri tədqiqi, cəmiyyətin əsas özəyi olan ailə institutunun konstitusiya hüququ statusunun kompleks tədqiqinə, onun problemlərinin müəyyən edilməsinə və həllinə böyük zərurət yaradır. Qeyd edilməsi zəruridir ki, hazırki tədqiqat zamanı nikah, ailə institutunun tərkib hissəsi kimi bir vəhdətdə öyrənilmişdir. İnsanın və ailənin konstitusiya statusunun tədqiqi zamanı hüquq elmlərinin müxtəlif sahələri, xüsusilə beynəlxalq hüquqla yanaşı, həm də fiziologiya, genetika, psixologiya və digər təbiət elmlərinin nailiyyətlərindən də istifadə edilmişdir. Bu da tədqiqatın kompleksiliyini və mükəmməlliyini təmin etmişdir.

Qərbin və Şərqin kəsişdiyi bir məkanda yerləşən, analoqu olmayan inkişafı ilə dünyada öncül yerlərdən birini tutan, multikultural dəyərləri, tolerantlığı, azərbaycançılıq ideologiyasını milli səfərbəredici və birləşdirici qüvvə kimi qəbul edən ölkəmiz və xalqımız ailəni müqəddəs hesab edir[4]. Əhalinin sayı təxminən 10 milyon, ailələrin sayı 2 milyon 65 min olan ölkədə ailə probleminin, ümumbəşəri insan problemlərinin tərkib hissəsi kimi öyrənilməsini, onun aktual problemlərinin müəyyən edilməsini və həllini tələb edir. Tədqiqat zamanı insanın və ailənin bioloji və psixoloji əsaslarının, mahiyyətinin konstitusiya hüquqi statusunun müəyyən edilməsi zamanı

---

1 Səfixanlı A. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti. B., Azərnəşr, 2003. S.7-124.

2 Azərbaycan Respublikasının Konstitusiyası. B., 2013. S.10-12

3 Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. B., 2016. S.3-7

4 Həsənov E., Abdullayev Ə. Azərbaycançılıq ideyasının inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu // "Dövlət idarəçiliyi (nəzəriyyə və təcrübə)" jurnalı. 2013. S.188-192

əhəmiyyətli rol oynadığı xüsusi olaraq qeyd edilmişdir. Ailənin konstitusiya hüquqi statusunun təsbitinin tədqiqi qlobal bir problem olaraq beynəlxalq və milli hüquq elmlərinin sintezi əsasında həyata keçirilmişdir. Bu problemin kompleks elmi-nəzəri və təcrübi tədqiqi bu gün milli elmimiz qarşısında duran mühüm vəzifələrdən biridir. Bütün bunlara görə də Azərbaycan ailəsinin və nikahının konstitusiya hüququ statusunun, beynəlxalq hüquqla müqayisəli və kompleks elmi-nəzəri tədqiqi, müasir dövrümüz üçün son dərəcə aktual və əhəmiyyətlidir[1].

**Tədqiqatın işlənmə səviyyəsi.** Azərbaycan ailəsinin konstitusiya hüquqi statusu ilk dəfə olaraq Azərbaycan SSR-nin sonuncu Konstitusiyasında təsbit edilmişdir. Dünyada və insanlıq tarixində ən dəyərli təsisat olan ailənin hüquqi statusunun konstitusiyada təsbit edilməsi, cəmiyyətin, dövlətin, mədəniyyətin və sivilizasiyanın inkişafının nəticəsidir. Buna baxmayaraq, ötən qırx ildə ailənin bir institut olaraq konstitusiya-hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli tədqiqi aparılmamışdır. Hazırda qloballaşan cəmiyyətin ümumdünya problemləri sırasında ailənin kompleks öyrənilməsi aktuallaşmışdır. Ailə cəmiyyətin əsasında, özəyində dayanan təsisat – institut olmaqla, o müxtəlif vaxtlarda tarixçilər, etnoqraflar, sosioloqlar, ailə hüququ üzrə mütəxəssislər, iqtisadçılar, siyasətçilər, filosoflar tərəfindən tədqiq edilmişdir. Tədqiqatçı S.A.Tokarev, hələ 1987-ci ildə yazdığı əsərində, ailə və ailə problemlərinə dair Qərb ölkələrində 1900-1960-cı illər ərzində 12 mindən çox kitab və məqalə

---

[1] Fəlsəfə ensiklopedik lüğəti. B., 1997; Dəmirçiyeva M.D Azərbaycan Respublikasının ailə hüququ. B., 2008; Ümumi hüquq və dövlət nəzəriyyəsi. B., 2007; Cəmiyyətin və dövlətin hüquqi əsasları. B., 1996; Qılıcov İ., Məmmədov İ. Hüququn mənbələri. B., 2006; Müstəqil Azərbaycan 20 il: dövlət ailə, qadın və uşaq siyasəti. B., 2012; Heydər Əliyev və dövlət qadın siyasəti. B., 2008; Qadın hüquqları beynəlxalq və milli qanunvericilikdə. B., 2002; İnsan hüquqları institutunun tərəfdaşları. B., 2013; Gender terminlərinin izahlı lüğəti. B., 2005; Müasir Azərbaycanda ailə və nikah institutu: sosioloji təhlil. B., 2010; Vahidov F., Ağayev T. Sosiologiya. B., 2013; Salmanova N.Ə. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı. B., 2013; Ailə Məcəlləsinin yozumu. B., 2005; Rüstəmov Y. Fəlsəfənin əsasları. B., 2004; Azərbaycan Respublikasının Konstitusiyası. B., 2016; Əliyev R. İslamda ailə və nikah münasibətləri. B., 2003; Mehdiyev R. Fəlsəfə. B., 2010; Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. B., 2012; Azərbaycan Respublikasında məişət zorakılığının qarşısının alınmasına dair qanunvericilik toplusu. B., 2012; Manayev Q.İ. Sovet ailə hüququ. B., 1989; Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. B., 2013; Алиев Ш. Научно-практический комментарий к конституции Азербайджанской Республики. Б., 2000; Антокольская М.В. Семейное право. М., 2000; Шестаков Д.А. Семейная криминология. СПб., 2003; Общество: государственность и семья. М., 2010; Ильичева М.Ю. Семейные споры. М., 2012; Кудрявцев В.Н. Преступность и нравы переходного общества. М., 2002: Köçərli F. Sosializm cəmiyyətində ailə. B., Azərnəşr, 1959; Mənsimov A. İnkişaf etmiş sosializm cəmiyyətində ailə və nikah. B., 1979; Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. B., Maarif, 1989; Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. B., 2005; Quliyeva N.M. Müstəqillik illərində Azərbaycan ailəsi. B., 2006

yazıldığını qeyd etmişdir[1]. Görkəmli tədqiqatçılar C.F.Mak-Lennanın, Baxoven İyohan Yakobun, C.Lebbokun, L.Morqanın, F.Engelsin, K.Marksın, O.Kontın, G.Zimmelin, F.Le Plenin, A.Q.Xarçevin, C.Ferqusonun, Liro-Telonun, O.Qanskayanın, Y.Semyonovanın, A.Ponamoryevun, A.T.Jdankonun, M.V.Antokolskayanın, V.A.Ryasençevin, Q.K.Matveyevin, A.M.Neçayevanın, Q.M.Sverdlovun, V.P.Şaxmatovun, V.İ.Boşkonun, A.V.Vişnyakovanın, A.İ.Zaqorovskiyin, V.A.Denisovun, N.İ.Marişevanın, M.İ.Petrovun, N.N.Tarusinanın, O.A.Xazovanın, D.Şestakovun, İ.M.Rəhimovun, F.Köçərlinin, Ə.Əliyevin, M.Məlikovanın, Ə.Əsədovun, Q.Manayevin, Ə.Əlizadənin, A.Abbasovun, A.Mustafayevanın, A.Rüstəmzadənin, Ə.Rzayevin, İ.Quliyevin, N.H.Əliyevin və onlarla digərlərinin apardığı tədqiqatlar və yazdıqları monoqrafiyalar ailənin tarixi, etnoqrafiyası, psixologiyası, sosiologiyası və fəlsəfəsinə həsr olunmuş, obyektiv elmi nəticələr çıxarılmışdır. Eləcə də son illər Rusiyada, Azərbaycanda, Türkiyədə və bir sıra digər ölkələrdə çoxsaylı dissertasiya işləri ailənin müxtəlif problemlərinin tədqiqinə həsr edilmişdir. Belə ki, A.V.Aqeyevanın, L.V.Sayenkonun, S.E.Vavilçenkovanın, O.V.Kuznetsovanın, X.Q.Aslanovun, Q.A.Zaikinanın, Y.V.Nikolayevanın, A.P.Platonovanın, V.A.Ramixın, M.V.Qellerin, Y.V.Anoxinin, N.E.Borisovanın, M.D.Dəmirçiyevanın, F.S.Abdullayev, Ə.İ.Əliyev, H.S.Qurbanovun, N.H.Əliyevin, C.Y.Qaracayevin, Ş.İ.Əliyevin, Z.Əsgərovun, K.Şiriyevanın, P.F.Poveliçınanın, Z.Q.Sadıqovun, M.N.Əliyevin, Y.N.Əliyevanın, Z.G.Kantemirovanın, Q.Ə.Qeybullayevin, N.M.Quliyevanın, N.Ə.Salmanovanın, İ.R.Allahverdiyevanın, N.M.Fərziyevanın, Camal Abdulkerim Abdonun və başqalarının monoqrafiyaları və dissertasiya işləri tədqiqatın nəzəri əsası üçün əhəmiyyətli rol oynamışdır[2]. Türkiyə

---

[1] Токарев С.Ф.Исследование семье в зарубежных социологический и этнографической литературе этносоциальные аспекты изичения семьи у народов Зарубежной Европы. М., «Наука», 1987. С.15

[2] Агеева А.В. Конституционный-правовой статус семьи в Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. Челябинск, 2014. Саенко Л.В. Конституционно-правовые основы охраны и защиты семьи в Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. Саратов, 2006. Вавильченкова С.Е. Правовое регулирование материнство и детства и семьи в Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. М., 2012. Кузнецова О.В. Конституционно-правовая защита семьи, материнства, отцовства и детства в России: Автореф.дисс.канд.юрид.наук. Челябинск, 2004. Асланов Х.Г. Обеспечение интересов отца в родительских правоотношениях по семейному законодательству Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. М., 2009. Заикина Г.А. Основные направления и меры регулирования брачно-семейных отношений. Опыт социологического анализа: Автореф.дисс.канд.юрид.наук. М., 1988; Николаева Ю.В. Охрана интересов семьи уголовно-правовыми средствами: Автореф.дисс.канд.юрид.наук. М., 1996. Платонова А.П. Детство и его защита в условиях реформирования российского общества: Автореф.дисс.канд.юрид.наук. М., 1995; Рамих В.А. Материнство как социокультурный феномен: Автореф.дисс.канд.философ.наук. Ростов-на-Дону, 1997; Борисова Н.Е. Конституционный основы правового положения несовершеннолетних в Российской Федерации (проблемы теории и практики). Дисс.доктора юрид.наук. М., 2004. Дамир-

Cümhuriyyətində İ.Doğanın, A.Yıldırımın, B.Köseoğlunun, M.Duralın, T.Öğüzün, M.A.Gümüşün, T.Akıntürkün, D.Ateşin, A.M.Kılıçoğlunun, B.Öztanın, H.Hateminin, B.K.Oğuztürkün, A.A.Şafakın, Z.Akıncının, C.D.Gökyaylanın[1] və başqalarının monoqrafiyaları türk cəmiyyətində ailənin və ailə münasibətlərinin aktual problemlərinin tədqiqinə həsr olunmuşdur. Bu tədqiqat əsərləri[2] ailənin mənşəyi, tarixi

---

чиева М.Д. Социальные и правовые проблемы воспитания детей в семье: Автореф.дисс.канд.юрид.наук. Тбилиси, 1997; Дамирчиева М.Д. Актуальные проблемы брачных правоотношений в Азербайджанской Республики: Автореф.дисс.док.юрид.наук. Тбилиси, 2003; Геллер М.В. Реализация и защита права несовершеннолетнего жить и воспитываться в семье по законодательству Российской Федерации: Автореф.дисс.канд.юрид.наук. М., 2007. Анохин Ю.В. Механизм государственно-правового обеспечения прав и свобод личности (на материалах РФ). Автореф.дисс.докт.юрид.наук. Саратов, 2007. Гилинский Я.И. Девиантология. СПб., 2004.. Шестаков Д.А. Семеяная криминология. Криминофамилистика. СПб.: Юрид. центр Пресс, 2003. Allahverdiyeva İ.R. Azərbaycan ailəsində ər-arvad münasibətlərinin sosial-psixoloji təhlili. Psixologiya elmlər namizədi dissertasiyasının avtoreferatı. B., 1994. Camal Abdulkərim Abdo. Yəmən ailəsində valideynlərlə uşaqların qarşılıqlı münasibətləri: psixoloji təhlil. Psixologiya elmlər namizədi dissertasiyasının avtoreferatı. B., 1996. Fərziyeva N.M. Müasir beynəlxalq hüquqda və Azərbaycan Respublikası qanunvericiliyində qadın hüquqlarının müdafiəsi. Hüquq elmləri namizədi dissertasiyasının avtoreferatı. B., 2007.

[1] Doğan İ. Dövlet hükuku. Ankara, Astana Yayınları, 2013. Doğan İ. Anayasa teorisi. Ankara, Lale Yayınları, 2014. Yıldırım A. Türk Aile Hukuku. Ankara, Savaş, 2014. Şahin E. Aile Hukuku Davaları Açıklamalı - İçtihatlı - Uygulamalı – Gerekçeli. Ankara, Adalet, 2012.. Genccan Ö.U. Aile Hukuku. Ankara. Yetkin. 2011. Köseoğlu B., Kocaağa K. Aile Hukuku ve Uygulaması Bilimsel Görüşler Yargı İçtihatları. Bursa, Ekin, 2011. Dural M., Öğüz T., Gümüş M.A. Türk Özel Hukuku Cilt:3 (Aile Hukuku). İstanbul, Filiz, 2016. Akıntürk T., Ateş D. Türk Medeni Hukuku Aile Hukuku. İstanbul, Beta Basım Yayın, 2016. Kılıçoğlu A.M. Aile Hukuku. Ankara, Turhan, 2016. Öztan B. Aile Hukuku. Ankara, Turhan Kitabevi Yayınları. 2015. Hatemi H., Oğuztürk B.K. Aile Hukuku. İstanbul. Vedat. 2014. Akıncı Z., Gökyayla C.D. Milletlerarası Aile Hukuku. İstanbul, Vedat, 2010. Zevkliler A., Ertaş Ş., Havutçu A., Gülpınar D. Yeni Medeni Kanuna Göre Medeni Hukuk Temel Bilgiler. Ankara, Turhan Kitabevi Yayınları, 2015.

[2] Ailə Məcəlləsinin yozumu. B., «Qapp-poliqraf» nəş., 2005; Dəmirçiyeva M. Azərbaycan Respublikasının ailə hüququ. B., «Qanun» nəşr., 2008; Əliyev R. İslamda ailə və nikah münasibətləri. B., «İrşad» nəşr., 2003; Gender terminlərinin izahlı lüğəti. B., BMT-nin əhali Fondu, 2005; Quliyeva Ş. Estetika: insan və təbiət. B., «Təhsil» nəşr, 2013; Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. B., «Bilik» nəşr, 2012; Manayev Q.İ. Sovet ailə hüququ. Dərslik. Azərbaycan Dövlət Universitetinin nəşri. B., 1989; Reproduktiv sağlamlıq etik şərhlərlə misallar. B., AQUPDK nəşr, 2006; Salmanova N.Ə. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı (sosial-fəlsəfi təhlil). B., «Avropa» nəş., 2013; Алиев Ш. Научно-практический комментарий к конституции Азербайджанской Республики. Баку, Юридичечский литер. Азернешр, 2000; Анохин Ю.В. Механизм государственно-правового обеспечения прав и свобод личности (на материалах РФ). Автореф.дисс.докт.юрид.наук. Саратов, 2007; Ильичева М.Ю. Семейные споры. «Феникс» Ростов на Дон, 2012; Кудрявцев В.Н. Преступность и нравы переходного общества.

formaları, sosial, iqtisadi, psixoloji, etik, estetik, bioloji, genetik, etnoqrafik və s. istiqamətlərdə tədqiqinə həsr olunsa da, lakin ailənin və nikahın konstitusiya hüquqi statusunun tədqiqi indiyə qədər aparılmamışdır. Bütün bunlar da Azərbaycan Respublikasında ailənin konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli tədqiqinin aparılmasının vacibliyini şərtləndirir. Bu problem milli elmimizdə ilk dəfdir ki, müstəqil tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın obyekti.** Müasir Azərbaycan Respublikasında bir institut olaraq ailənin və nikahın Konstitusiya hüquqi statusunun təsbiti, onun beynəlxalq hüquq normaları ilə müqayisəli təhlili, sahəvi hüquq normalarının tədqiqi, ailədə yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsinin aktual problemləri, bu sahədə həyata keçirilən köklü islahatlar, bütöv bir sistem olaraq dissertasiya işinin əsas tədqiqat obyektini təşkil edir.

**Tədqiqatın predmeti.** Müasir ailə və nikah institutunun Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi təsbitinin tədqiqi, bu sahədə konstitusiya hüquq normalarının beynəlxalq hüquqla müqayisəli və kompleks təhlili dissertasiya işinin əsas predmetini təşkil edir. Müqayisəli təhlili əsasında ailənin və nikahın konstitusiya hüquqi statusunun mahiyyətinin öyrənilməsi, təkamülünün izlənməsi, bu sahədə aparılan hüquq islahatları işin əsas predmet məzmununu təşkil etmişdir.

**Tədqiqat işinin məqsədləri və vəzifələri.** Dissertasiya tədqiqatının **əsas məqsədini** müstəqillik illərində ölkə üçün qlobal bir problem kimi müasir Azərbaycan ailəsinin konstitusiya hüquqi statusunun kompleks elmi-nəzəri tədqiqatlara cəlb edilməsi yolu ilə, onun əsas problemlərinin müəyyən edilməsi və bu problemlərin uğurlu həllinə yönəlmiş yeni təkliflərin, müddəaların və tövsiyələrin irəli sürülməsi məsələləri təşkil edir. Hüquqi dövlət quruculuğu yolunda böyük inamla inkişaf edən müasir Azərbaycan Respublikasında ailənin və nikahın konstitusiya hüquqi statusu beynəlxalq hüquqla kompleks və müqayisəli şəkildə tədqiq olunmuş, yeni, daha uğurlu, daha mötəbər nəticələr çıxarılmış, çoxsaylı təkliflər və müddəalar irəli sürülmüşdür.

**Tədqiqatçı bu məqsədlərə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoymuşdur:**

- qloballaşma prosesləri kontestində beynəlxalq hüquq normaları və ratifikasiya olunmuş beynəlxalq müqavilələr əsasında Azərbaycanda ailə və nikah institutunun konstitusiya hüquqi statusunu, sosial, siyasi, iqtisadi və hüquqi mahiyyətini, tarixi təkamülünü və müasir vəziyyətini kompleks tədqiq edib, öyrənmək;
- ailə və nikah institutunu, cəmiyyətin qlobal problemi kimi tədqiqatlara cəlb etmək yolu ilə, onun müasir və aktual problemlərini üzə çıxarmaq, həlli yollarını göstərmək, normativ tənzimləmə məsələlərinə dair müasir və yeni elmi təkliflər irəli sürmək;
- cəmiyyətdə ailənin və nikahın yerini və rolunu, əhəmiyyətini və dəyərini müəyyən etmək, onun müasir problemlərini üzə çıxartmaq və həlli yollarını göstərmək,

М., «Гардарики», 2002; Общество: государственность и семья. М., «Семья», 2010; Шестаков Д.А. Семейная криминология. Криминофамилистика. СПб., Юрид. центр Пресс, 2003

«ailə başçısı», «ailənin idarəçiliyi» və digər bu kimi institutlara aydınlıq gətirmək və onların əhəmiyyətini göstərmək;

- demokratik hüquqi dövlət quruculuğu kontekstində beynəlxalq hüquq normalarına və müqavilələrə müvafiq olaraq Azərbaycan Respublikasında ailə və nikah institutunun konstitusiya hüquqi statusunun sosial-siyasi, mənəvi-etik və iqtisadi-reproduktiv əsaslarını müəyyən etmək, demokratik hüquqi dövlət quruculuğu kontekstində ailə-sosial dövlət münasibətlərinin konstitusiya hüquqi əsaslarını müəyyən etmək;
- ailənin və nikahın hüquqi statusunu beynəlxalq hüquq normalarına və müqavilələrə əsaslanaraq təsbit edən Azərbaycan Respublikasının milli Konstitusiyasının rolunu müəyyən etmək, onun səciyyəvi xüsusiyyətlərini və dəyərini göstərmək;
- Azərbaycan Respublikasının Konstitusiyasında ailənin və nikahın hüquqi statusunun tətbiqi sahəsində sahəvi hüquq normalarının, Ailə Məcəlləsinin, Mülki Məcəllənin və digərlərinin rolunu tədqiq etmək, ailənn hüquqi subyektliliyinə və hüquqi şəxs kimi tanınması əsaslarına aydınlıq gətirmək;
- cəmiyyətin əsas özəyi kimi – Azərbaycan ailəsinin cəmiyyətlə, dövlətlə və dinlə qarşılıqlı münasibətlərinin beynəlxalq hüquq normalarına əsaslanan konstitusiya hüquqi tənzimlənməsinin aktual problemlərini üzə çıxarmaq, onun struktur quruluşunun, sistemaltı elementləri olaraq əsas meyarlarını və komponentlərini müəyyən etmək, problemlərini və həlli yollarını göstərmək;
- ailə institutunun konstitusiya və beynəlxalq hüquqi əsası kimi nikahın tarixinə və müasir tənzimlənməsinə diqqət yetirmək, onun aktual problemlərini, o cümlədən erkən nikahı doğuran səbəbləri müəyyən etmək və onların aradan qaldırılması yollarını göstərmək. Kişi və qadın arasında nikahdankənar ər-arvad münasibətlərini, vətəndaş nikahına əsaslanan ailənin müasir problemlərini tədqiq etmək, nikahdankənar doğulan uşaqların statusu ilə bağlı beynəlxalq təcrübəni öyrənmək və bu sahədə qanunların təkmilləşdirilməsinə dair təkliflər vermək;
- ailə və nikah sahəsində qanunvericiliyin, milli və beynəlxalq hüquq normalarının tətbiqi və təfsiri üçün əhəmiyyətli olduğu nəzərə alınaraq, «qadın», «uşaq», «ailə», «nikah» və digər bu kimi terminlərə definisiyalar vermək, onların sosial-siyasi, bioloji-reproduktiv, mənəvi-əxlaqi və psixoloji mahiyyətini və əhəmiyyətini müəyyən etmək;
- ailə üzvü kimi qadının – ananın konstitusiya və beynəlxalq hüquqi statusunu, onun hüquqlarını və azadlıqlarını təhlil etmək, səciyyəvi xüsusiyyətlərini və təkmilləşdirilməsi yollarını göstərmək, gələcəyə baxış İnkişaf Konsepsiyası kontekstində cəmiyyətin, dövlətin və insanın təkamülündə və inkişafında ailə üzvü kimi qadının yerini və rolunu müəyyən etmək;
- ailənin üzvü kimi uşağın konstitusiya və beynəlxalq hüquqi statusunu və onun sosial-siyasi, mənəvi-əxlaqi və hüquqi meyarlarını müəyyən etmək, uşağın statusunun, onun hüquqlarının və azadlıqlarının təkmilləşdirilməsinin təşkilati-hüquqi və normativ əsaslarını göstərmək;

- hüquqi dövlət quruculuğu kontekstində Azərbaycanda ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin və mühafizəsinin əsas prinsiplərini, müasir vəziyyətini və problemlərini müəyyən etmək, müdafiə mexanizmlərinin fəaliyyətinin səmərəliliyini artırmağın yollarını göstərmək;
- ailə idarəçiliyinin hüquqi əsaslarını müəyyən etmək, ailə münasibətlərinin möhkəmləndirilməsinin Konstitusiya hüquqi əsası kimi, nikah və ailə münasibətlərinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi və möhkəmləndirilməsi yollarını göstərmək;
- ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin milli və beynəlxalq mexanizmlərinin təkmilləşdirilməsi yollarını göstərmək, bu sahədə yeni və kompleks beynəlxalq Konvensiyaların hazırlanmasının və qəbul edilməsinin zəruriliyini əsaslandırmaq. Xüsusilə ailə zorakılığına və Dağlıq Qarabağ münaqişəsi kontekstində ailə, qadın və uşaq hüquqlarının kütləvi pozulması hallarına diqqət çəkmək, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin adının dəyişdirilməsinin və onun ərazi təşkilati-hüquqi fəaliyyətinin təkmilləşdirilməsinin zəruriliyini əsaslandırmaq;
- gələcəyə baxış İnkişaf Konsepsiyası kontekstində ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin aktual problemlərini və təkmilləşdirilməsi yollarını müəyyən etmək, ailə, qadın və uşaq problemləri üzrə Dövlət Proqramlarının, ailə strategiyasının və uşaq strategiyasının hazırlanmasının zəruriliyini və əhəmiyyətini əsaslandırmaq.

**Tədqiqatın metodikası və nəzəri əsasları.** Tədqiqatın metodoloji əsasını, cəmiyyətin, dövlətin və şəxsiyyətin inkişafının obyektiv və dialektik qanunauyğunluqları, normativ-hüquqi, elmi və təcrübi materialların ümumiləşdirilməsi, tarixi və sistemli yanaşma, müqayisəli hüquqşünaslıq, sistemli-struktur, kompleks, statistik təhlillər, nəzəriyyə ilə təcrübənini əlaqələndirilməsi və tarixilik metod prinsipi təşkil edir. İşin metodoloji əsasında ictimai və humanitar elmlərin, o cümlədən konstitusiya və beynəlxalq hüquq elmlərinin ümumelmi, xüsusielmi və müasir elmi metodları dayanır. Bu problemin öyrənilməsi və həlli ilə əlaqədar olaraq ailənin və nikahın mahiyyəti araşdırılarkən şəxsiyyətin hüquqlarına və azadlıqlarına hörmətlə yanaşılması, determinizm, tərəqqi, qanunun aliliyi və məsələlərin təhlilinə obyektiv yanaşma kimi prinsiplərdən istifadə edilmiş, bir çox hüquqşünas-alimlərin əsərləri mütaliə və təhlil edilmiş, tədqiqat əsərlərində irəli sürülmüş fikirlərə və mülahizələrə obyektiv, tənqidi yanaşma prinsipinə önəm verilmişdir.

Tədqiqat yerinə yetirilərkən BMT-nin və Avropa Şurasının müvafiq Konvensiyalarının, Azərbaycan Respublikasının çoxsaylı müxtəlif normativ-hüquqi aktlarının, hüquq elminin müxtəlif sahələrinin, o cümlədən dövlət və hüquq nəzəriyyəsinin, konstitusiya hüququnun, inzibati hüququn, beynəlxalq ümumi hüququn, humanitar hüququn, habelə fəlsəfə, sosiologiya, iqtisadiyyat və s. elmlərin nəzəri müddəalarından, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi sahəsində müvafiq prinsiplərdən istifadə edilmişdir. Problemə yeni dünya düzəni kontekstində yanaşma, ikili standartlar doğuran səbəblərə dair tədqiqat əsərlərindən və yeni yanaşmalar tələb edən metodlardan istifadə edilmişdir. Eləcə də dissertasiya işi yazılarkən istifadə edilmiş çoxsaylı monoqrafiyalar, əsərlər, məqalələr, sosioloji sorğular, ümumiləşdirmələr, təhlillər işin nəzəri əsasını təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** Azərbaycan Respublikasında müasir ailənin və nikahın Konstitusiya hüquqi statusunun beynəlxalq hüquqla müqayisəli və kompleks elmi-nəzəri tədqiqinə həsr olunmuş, ilk monoqrafik xarakterli dissertasiya işi olmaqla, doktorluq dissertasiyasının özü bütünlükdə işin əsas elmi yeniliyini təcəssüm etdirir. Beynəlxalq və milli hüquq normalarının müqayisəli tədqiqi, çoxsaylı müəlliflərin problemlə bağlı əsərləri, monoqrafiyaları, məqalələri, sosioloji sorğular, statistik məlumatlar, ümumiləşdirmələr, təhlillər, Avropa İnsan Hüquqları Məhkəməsinin, Ali Məhkəmənin və Konstitusiya Məhkəməsinin qərarları işin yazılmasında əhəmiyyətli rol oynamışdır. Ailənin Konstitusiya hüquqi statusu və bununla sıx bağlı olan normativ-hüquqi aktlarda, məcəllələrdə, məhkəmə və istintaq təcrübəsində mühüm əhəmiyyət kəsb edən anlayışlara, terminlərə, ayrı-ayrı hüquq normalarına, maddələrə konstitusiya hüquqi baxımdan aydınlıq gətirilmiş, elmi cəhətdən dərindən təhlil olunmuş, problemlə bağlı bir çox terminlərin ilk dəfə olaraq definisiyaları verilmiş, Azərbaycan Respublikası Konstitusiyasının, Ailə, Mülki, Mülki-Prosessual, Cinayət Məcəllələrinin, «Uşaq hüquqları haqqında», «Məişət zorakılığının qarşısının alınması haqqında» və digər qanunlara, habelə beynəlxalq konvensiyalara dair yeni və daha uğurlu təkliflər irəli sürülmüşdür. Ölkəmizdə ilk dəfə olaraq «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsi hazırlanıb qanunverici orqana təqdim edilmiş, müsbət qiymətləndirilmiş və müzakirə üçün qəbul edilmişdir. Araşdırma zamanı tədqiq olunan problemlə bağlı çoxsaylı təkliflər irəli sürülmüş, mövzu ilə bağlı aparılan tədqiqatın nəticələrini əks etdirən monoqrafiyalar yazılmış və məqalələr nüfuzlu elmi jurnallarda dərc edilmişdir.

Tədqiqat zamanı irəli sürülən **əsas elmi yeniliklər** və müdafiəyə çıxarılan **başlıca müddəalar** aşağıdakılardan ibarətdir:

Tədqiqatın elmi yeniliyi onunla müəyyən edilir ki, konstitusiya və beynəlxalq hüquq elmlərinin sintezi əsasında hazırlanmış «Azərbaycan Respublikasında ailə institutunun konstitusiya hüquqi statusu (beynəlxalq hüquqla müqayisəli təhlil)» adlı doktorluq dissertasiyası, elm tariximizdə bu problemin kompleks elmi-nəzəri tədqiqinə həsr olunmuş ilk monoqrafik xarakterli işdir. Zəngin elmi-nəzəri mənbələrin və təcrübi materialların kompleks tədqiqi və üzvi surətdə əlaqələndirilməsi nəticəsində müəllif yenilik və yenilik elementi kimi bir çox anlayışlara ilk dəfə olaraq definisiyalar vermiş, irəli sürdüyü yeni elmi müddəaları, təklifləri və nəticələri kifayət qədər əsaslandırmış, mühüm nəzəri və təcrübi əhəmiyyətə malik olan aktual problemlərin həllini təmin edən yeni və uğurlu təkliflər irəli sürmüşdür. Dissertasiya müstəqil Azərbaycan Respublikası üçün mühüm sosial, mədəni və elmi əhəmiyyət kəsb edən ailənin və nikahın konstitusiya hüquqi statusunun aktual problemlərinin uğurlu həllini, perspektiv inkişafını təmin edən və böyük elmi nailiyyət hesab oluna bilən, daxili vəhdətə malik olan bitkin, monoqrafik tədqiqat işidir.

Tədqiqatın elmi yenilikləri dissertasiyanın aşağıda şərh edilən əsas elmi müddəalarında əks olunur:

**I. Beynəlxalq hüquq normalarının təkmilləşdirilməsinə dair təkliflər:**

**1.** Dünyada ailə, qadın və uşaq hüquqlarının mühafizəsi və müdafiəsi sahəsində problemlərin ildən-ilə artması nəzərə alınaraq, ailənin hüquqlarının, azadlıqlarının,

öhdəliklərinin beynəlxalq standartlarının müəyyən edilməsi məqsədilə BMT-nin «Ailənin statusu haqqında», «Qadınların statusu haqqında», «Uşaqların statusu haqqında» XXI əsrin üç müfəssəl Konvensiyasının hazırlanması və qəbul edilməsi barədə təkliflər irəli sürülür. Bu Konvensiyalarda ailənin, qadının və uşağın hüquqlarının mahiyyəti, məzmunu, prioriteti, müdafiə və mühafizə mexanizmlərinin, habelə beynəlxalq standartlarının müəyyən edilməsi təklif olunur. Bu sənədlərin qəbul edilməsi üzv dövlətlərin də müvafiq normativ-hüquqi aktlarının qəbul edilməsi və əsas standartlarının müəyyən edilməsi üçün bir baza kimi əhəmiyyətli rol oynaya bilər.

**2.** Beynəlxalq səviyyədə ən nüfuzlu təşkilat hesab olunan BMT-nin müvafiq qərarlarının icra olunmaması onun nüfuzunu aşağı salır və fəaliyyətində ciddi çətinliklər yaradır. BMT-nin qərarlarının həyata keçirilməsini təmin etmək məqsədilə «BMT-nin Qərarlarının icrası üzrə Konvensiya»nın hazırlanması və qəbul edilməsi təklif edilir.

**II. Azərbaycan Respublikasının ailə, qadın və uşaq siyasətinin təkmilləşdirilməsinə dair təkliflər:**

**3.** Ölkədə uzunmüddətli dövr üçün «Azərbaycan ailəsinin İnkişaf Strategiyası»nın, «Uşaq Strategiyası»nın və ailə siyasətinin konseptual əsaslarının hazırlanması və həyata keçirilməsi çox vacibdir. Bu Strategiyalar əsasında uzunmüddətli dövr üçün və ayrı-ayrı illər üzrə ölkənin və regionların müvafiq Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsi ailə problemlərinin uğurlu həllinə dəyərli töhfələr verə bilər.

**4.** «Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi»nin adının mürəkkəb və çox sözlü olması nəzərə alınaraq, onun daha lakonik və qısa formada «Azərbaycan Respublikasının Ailə Problemləri üzrə Dövlət Komitəsi» adlanması təklif edilir. Dövlət Komitəsinin regional şöbə və idarələrinin yaradılması, onların inzibati təsir imkanlarının artırılması məqsədəmüvafiq hesab edilir, Komitənin statusunda müvafiq dəyişikliklərin aparılması, onun səlahiyyətlərinin artırılması və icra mexanizmlərinin təkmilləşdirilməsi təklif edilir.

**5.** Ailənin problemlərinin ildən-ilə artması, müəkkəbləşməsi, profilaktiki və qabaqlayıcı tədbirlərin tətbiqi zərurəti nəzərə alınaraq, Komitənin nəzdində «Ailə Problemləri üzrə Elmi Tədqiqat İnstitutu»nun yaradılması məqsədəmüvafiq hesab edilir.

**6.** Azərbaycan Respublikasında ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində təcrübi problemlərin artması nəzərə alınaraq, müstəqil «Ailə, Qadın və Uşaq hüquqları üzrə müvəkkil»in – Ombudsmanın təsis edilməsi təklif edilir.

**7.** Azərbaycan Respublikasında ixtisaslaşmış ailə məhkəmələrinin yaradılması təklif edilir. Hesab edilir ki, yetkinlik yaşına çatmayanların işlərinə, ailə və ailə münasibətləri sahəsində cinayət, mülki, inzibati, mənzil və digər qanunvericiliyin pozulması ilə bağlı işlərə, həm də ailə sirlərinin qorunması məqsədilə yaradılmış müstəqil ailə məhkəmələrində baxılması effektiv nəticələr verə bilər.

**8.** «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsi ilk dəfə olaraq hazırlanıb, müzakirə üçün Milli Məclisə təqdim olunmuş, müsbət qiymətləndirilmiş və qanunvericiliyin təkmilləşdirilməsi zamanı

istifadə ediləcəyi barədə cavab alınmışdır. Bu layinənin əhəmiyyəti və dəyəri nəzərə alınaraq, onun müzakirəsinin və qəbul olunmasının məqsədəmüvafiqliyi vacib hesab edilir.

**9.** Müstəqillik illərində uşağın statusu, onun hüquqları və azadlıqları ilə bağlı çoxsaylı normativ-hüquqi və normativ xarakterli aktlar qəbul edilmişdir ki, bu da onların təcrübədə tətbiqi zamanı müəyyən çətinliklər yaradır. Buna görə də «Normativ-hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununa müvafiq olaraq uşaq hüquqlarına dair normativ-hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ-hüquqi aktda birləşdirilməsi – məcəlləşdirilməsi uşaqların müdafiəsi və mühafizəsi üçün əhəmiyyətli rol oynaya bilər. Buna görə də təklif edilir ki, uşaqlarla bağlı bütün normativ-hüquqi aktların məcmu şəkildə birləşdirilməsi və məcəlləşdirilməsi yolu ilə «Azərbaycan Respublikasının Uşaq Məcəlləsi»nin hazırlanması və qəbulu təmin edilsin.

**10.** Azərbaycan Respublikasının Ailə Məcəlləsi 28 dekabr 1999-cu ildə qəbul edilməklə, 1 iyun 2000-ci ildən qüvvəyə minmişdir. Ötən dövr ərzində Azərbaycan Respublikası Konstitusiyası keçirilən üç referendumla daha da təkmilləşdirilmiş və buna müvafiq olaraq Ailə Məcəlləsində əhəmiyyətli dəyişikliklər aparılmışdır. Bütün bunlarla yanaşı Azərbaycan Respublikasının yeni Ailə Məcəlləsinin beynəlxalq standartlara və Azərbaycan Respublikasının Konstitusiyasına tam cavab verə bilən yeni layihəsinin hazırlanması və müzakirəyə təqdim edilməsi məqsədəmüvafiq hesab edilir.

**III. Azərbaycan Respublikası Konstitusiyasının təkmilləşdirilməsinə dair təkliflər:**

**11.** Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Maddə 17. Ailə, uşaq və dövlət

I. Yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, fizioloji və bioloji tələbatlarını təmin etmək, sevgiyə, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, kişi və qadın birliyi kimi ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq, onu tərbiyə edib yetişdirmək məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis edilən, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş qaydalara əməl etməklə, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yaranan kiçik sosial qrup, kişi-qadın birliyi ailə hesab edilir.

II. Cəmiyyətin təbii və əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. O cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir. Ailə zorakılığı qanunla qadağan edilir və məsuliyyətə səbəb olur. Dövlət ailənin inkişafına zəruri köməklik göstərir. Ər və arvad ailə münasibətlərində, o cümlədən ailə qarşısında duran vəzifələrin və öhdəliklərin həyata keçirilməsində və ailənin idarə olunmasında hüquqca tamamilə bərabərdirlər. Ailə imkan dairəsində, ələlxüsus onun yaranma dövründə və öhdəsində kiçik yaşlı uşaqların böyüdülməsi və tərbiyə olunması məsuliyyəti düşdüyü zaman, dövlət tərəfindən hərtərəfli mühafizə və müdafiə olunur, zəruri həyat şəraiti ilə təmin edilir. Analıq və uşaqlıq xüsusi himayə və yardım hüququ verir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Ailə üzvlərinin beynəlxalq və milli hüquqla müəyyən

edilmiş hüquqlarının, vəzifələrinin və azadlıqlarının müdafiəsinə dövlət tərəfindən təminat verilir.

III. Hər bir şəxs 18 yaşına, yəni yetkinlik yaşına çatana qədər uşaq hesab edilir. Nikahla və yaxud nikahsız doğulmuş uşaqlar eyni sosial müdafiədən istifadə edirlər. Hər bir uşaq doğulduqdan sonra dərhal qeydə alınmaq, ada malik olmaq və vətəndaşlıq əldə etmək hüququna malikdir.

Uşaqlar və gənclər hər kəsin mənsub olduğu iqtisadi və sosial hüquqlara malikdirlər. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Valideynlər uşaqların təhsilinə və mənəvi-əxlaqi tərbiyəsinə qayğı göstərməli, onları ictimai faydalı əməyə hazırlamalı və cəmiyyətin layiqli üzvü kimi yetişdirməlidirlər. Valideynlərin bu borcunun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Dövlət uşaq tərbiyə və təhsil müəssisələrinin geniş şəbəkəsini yaratmaq və inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda ona birdəfəlik müavinət vermək, çoxuşaqlı ailələrin maddi vəziyyətini yaxşılaşdırmaq üçün yardımlar ayırmaq, güzəştlər etmək, habelə ailəyə başqa növ zəruri müavinətlər vermək, yardım göstərmək və mənzil şəraitini yaxşılaşdırmaq yolu ilə ailənin qayğısına qalır. Dövlət çoxuşaqlı ailələrə birdəfəlik, fasiləsiz yardımlar göstərir, ailə kapitalı fondunun yaradılması və qanunvericiliyin nəzərdə tutduğu hallarda ailələrə verilməsi üçün tədbirlər görür.

IV. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar 18 yaşına çatana qədər dövlətin himayəsindədirlər.

V. Uşaqları, onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən qanunsuz fəaliyyətə cəlb etmək qadağandır.

VI. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VII. Beynəlxalq və milli hüquqla müəyyən edilmiş ailə, qadın və uşaq hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə dövlət nəzarət edir».

**12.** Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Maddə 34. Nikah hüququ

I. Hər kəsin qanunla nəzərdə tutulmuş nikah yaşına çatdıqda ailə qurmaq hüququ vardır. Ailə nikah əsasında rəsmiləşdirilir. Qanunvericiliklə müyyən edilmiş yaş həddinə çatan, anlaqlı, sağlam, başqa nikahda olmayan, qanunvericiliklə müəyyən edilmiş qan qohumları istisna edilmək şərti ilə, qarşılıqlı məhəbbətə və hörmətə əsaslanan, maddi, mənəvi və fizioloji tələbatların ödənilməsinə, şəxsi əmlak hüquqlarının və vəzifələrin əmələ gəlməsinə, birgə yaşamaq və ailəni idarə etmək, övlada sahib olmaq, onları böyütmək, tərbiyə etmək və ailə qurmaq məqsədilə, qadının və kişinin azad iradəsini ifadə edən və könüllü razılığına əsaslanan, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən birlik, ittifaq, nikah hesab olunur.

Dövlət kişinin və qadının nikah bağlayarkən, nikah vəziyyətində olarkən və nikahı pozularkən ərlə-arvadın hüquqlarının və vəzifələrinin bərabərliyini təmin edən tədbirlər görür. Nikahın pozulması halında bütün uşaqlar üçün zəruri müdafiə tədbirləri nəzərdə tutulur.

II. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Beynəlxalq və milli hüquqla müəyyən edilmiş uşaq hüquqlarının və azadlıqlarının qorunmasına dövlət tərəfindən təminat verilir.

IV. Ailə münasibətlərində və ailə idarəçiliyində ərin və arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də vəzifəsidir.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar».

**13.** BMT-nin 12 noyabr 1989-cu il tarixli «Uşaq hüquqları haqqında» Konvensiyasının 1-ci, Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli «Uşaq hüquqları haqqında» Qanununun 1-ci maddələrində, eləcə də Azərbaycan Respublikasının 24 may 2005-ci il tarixli «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanununun 1-ci maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Uşaq – yetkinlik yaşı, yəni 18 yaşı tamam olmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən insan cinsi – qız və ya oğlan, uşaq hesab edilir».

**IV. Azərbaycan Respublikası Ailə Məcəlləsinin təkmilləşdirilməsinə dair təkliflər:**

**14.** Ailə Məcəlləsinin 1.1 maddəsində «ibarətdir» sözündən sonra aşağıdakı məzmunlu mətnin əlavə edilməsi təklif edilir:

«Belə beynəlxalq müqavilələr, məzmunu dəyişdirilmədən, müəyyən qaydada toplularda (külliyyatlarda) birləşdirilmək yolu ilə inkorporasiya edilir».

**15.** Ailə Məcəlləsinin 1.3-cü maddəsində, «zəruriliyindən» sözündən sonra «valideynlərin və uşaqların bir yerdə yaşamaq hüququnun təmin olunmasından» söz birləşməsinin əlavə edilməsi təklif edilir.

**16.** Ailə Məcəlləsinin 1-ci maddəsinə yeni 1.6 maddənin əlavə edilməsi təklif edilir:

«1.6. Müvafiq icra hakimiyyəti orqanlarında nikah əqdi qeydiyyata alındıqdan sonra, tərəflər – kişi və ya qadın öz istəklərinə müvafiq olaraq, dini kəbin kəsmədən istifadə etməyə haqlıdır».

**17.** Ailə Məcəlləsinin «Birinci bölmə»sinin «Ümumi müddəalar» adlanan hissəsinin «Ailə qanunvericiliyi» adlanan «1-ci fəsli»nin birinci maddəsindən sonra «Anlayışlar» adlı maddənin əlavə edilməsi mühüm əhəmiyyətə malikdir. Bu da onunla əlaqədar ki, kifayət qədər mürəkkəb və xüsusi bilik tələb edən ailə qanunvericiliyində və Konstitusiyada istifadə edilən bir sıra terminlərə definisiyaların verilməsi mühüm əhəmiyyətə malik olacaq, onun tətbiqini və təfsirini asanlaşdıracaqdır. «Normativ-hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 31-ci maddəsinin tələbinə əsasən tədqiqat zamanı Azərbaycan Respublikasının Konstitusiyasında və Ailə Məcəlləsində istifadə edilən «ailə», «müasir ailə», «milli ailə modeli», «insan», «qadın», «kişi», «uşaq», «nikah», «analıq», «atalıq», «valideyn», «uşaqlıq», «evdar qadın» və s., ümumiyyətlə isə on beşdən çox terminə müstəqil definisiyalar verilmiş, onların mahiyyəti və məzmunu hüquqi baxımdan

kompleks təhlil edilmişdir. Əminliklə demək olar ki, bu terminlərin elmi-nəzəri mahiyyətinin təhlil edilməsi və onlara anlayışların verilməsi mühüm əhəmiyyət kəsb edəcək, Konstitusiyada nəzərdə tutulmuş ailənin və nikahın statusunun, eləcə də Ailə Məcəlləsinin tətbiqi və təfsiri zamanı əhəmiyyətli rol oynayacaqdır. Nəzərə almaq lazımdır ki, istər beynəlxalq və istərsə də milli səviyyədə bu terminlərə ilk dəfədir ki, definisiyalar verilmişdir.

**18.** Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 2.3 maddəsinə «ittifaqıdır» sözündən sonra aşağıdakı məzmunda yeni bəndin əlavə edilməsi təklif edilir: «Kişi və qadının razılıqları əsasında ailə qurmaq, övlad sahibi olmaq, birgə yaşamaq, ümumi təsərrüfatı birgə idarə etmək məqsədilə birgəyaşayış və nikah faktı məhkəmə yolu ilə təsdiq olunduğu hallarda, belə əqd, müvafiq icra hakimiyyəti orqanlarında qeydiyyata alınan ər-arvad ittifaqına, ailəyə bərabər tutulur, nikah hesab edilir, tərəflər üçün hüquqlar, vəzifələr və öhdəliklər yaradır».

**19.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin birinci fəslinə aşağıdakı məzmunda «5a» maddəsinin əlavə edilməsi təklif edilir:

«Maddə 5a. Əgər Azərbaycan Respublikasının ailə qanunvericiliyi ilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydalar arasında fərqli hallar aşkar edilərsə, bu zaman beynəlxalq müqavilələrdə müəyyən edilmiş qaydalar tətbiq edilir».

**20.** Azərbaycan Respublikası Ailə Məcəlləsinə «6 a» adlı yeni maddənin əlavə edilməsi təklif edilir:

«Maddə 6a. Ailənin hüquqları, azadlıqları və vəzifələri

Qadının və kişinin biofizioloji tələbatını ödəmək, ailə qurmaq məqsədilə könüllü yaratdıqları ailə – insan birliyi və ya ittifaqı, ictimai və hüquq münasibətlərinin subyekti olaraq azadlıq hüququ, mülkiyyət hüququ, bərabərlik hüququ, hüquqların və azadlıqların məhkəmə təminatı hüququ, birləşmək hüququ, siyasi sığınacaq almaq hüququ, azad sahibkarlıq hüququ, yaşayış yeri seçmək hüququ, aclıqdan qorunmaq hüququ, ölkəni tərk etmək hüququ, sosial sığorta hüququ, şəxsi və mənzil toxunulmazlığı hüququ, istirahət hüququ, ailəni qorumaq və təhlükəsiz yaşamaq hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, təhsil hüququ, internetdən və informasiya texnologiyalarından istifadə etmək hüququ, sağlamlığını qorumaq hüququ, mənzil hüququ, övlada sahib olmaq hüququ, ailənin şərəf və ləyaqətinin müdafiə etmək hüququ, ailə üzvlərin birinin digərinə – özünə, arvadına (ərinə), yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi prinsipi, uşaqların qayğısına qalmaq, onları sağlam böyütmək, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etmək, müstəqil həyata hazırlamaq, ailə tərbiyəsinə üstünlük vermək, onların rifahına və inkişafına qayğı göstərmək, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarının və mənafelərinin müdafiəsini təmin etmək, uşaqları Vətənə sədaqət və məhəbbət ruhunda tərbiyə etmək, ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi, hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi, ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması, uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi, ailə üzvləri olan valideynlərin öz uşaqlarını saxlamaq borcu, valideynlər, həmçinin əmək

qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamaq, yetkinlik yaşına çatmış övladların maddi yardıma ehtiyacı olan, əmək qabiliyyəti olmayan valideynlərini saxlamaq, onlara qayğı göstərmək, hər bir ailə üzvünün öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmağa haqlı hesab edilməyən hüquqları, azadlıqları və vəzifələri vardır. Ailə dövlətin xüsusi himayəsində olmaqla onun statusunun - hüquqlarının, azadlıqlarının və vəzifələrinin qorunmasına dövlət nəzarət edir».

**21.** Azərbaycan Respublikası Ailə Məcəlləsinə «6 b» adlı yeni maddənin əlavə edilməsi təklif edilir:

«Maddə 6 b. Ailənin idarəçiliyi

Azərbaycan Respublikası Ailə Məcəlləsində müəyyən edilmiş qaydada, ailənin hüquqlarının, azadlıqlarının, vəzifələrinin və öhdəliklərinin həyata keçirilməsini və ailə vəzifələrinin yerinə yetirilməsini təmin edən fəaliyyətin məcmusu ailənin idarəçiliyi hesab olunur. Ailənin idarəçiliyi ər və arvadın bərabər hüquqluluğu prinsipi əsasında həyata keçirilir. Ər və arvad ailə idarəçiliyində bərabər hüquqlar və bərabər vəzifələr daşıyırlar».

**22.** Azərbaycan Respublikası Ailə Məcəlləsinə «6 c» adlı yeni maddənin əlavə edilməsi təklif edilir:

«Maddə 6 c. Ailə başçısı – Azərbaycan Respublikasının Ailə Məcəlləsinə müvafiq olaraq, kişi və qadın tərəfindən ailə qurmaq məqsədi ilə yaradılmış və müvafiq orqanlarda qeydə alınmış insan birliyi olaraq ailənin hüquqlarının, azadlıqlarının, vəzifələrinin və öhdəliklərinin həyata keçirilməsini həyat yoldaşı ilə birlikdə təşkil və təmin edən, ailə idarəçiliyinə rəhbərlik edən kişi, ailənin başçısı hesab olunur.

Tərəflərin qarşılıqlı razılığı əsasında, ailənin dağılması və ya ərin vəfatı nəticəsində olmayan ailə başçısı funksiyasını arvad, həyat yoldaşı həyata keçirir və o ailə başçısı statusunu alır».

**23.** Ailə Məcəlləsinin 9.1, 9.5, 10.2, 11, 13 və bir sıra digər maddələrində göstərilən <u>«nikaha daxil olan şəxslər» sözləri</u>, Məcəllənin digər maddələrində göstərildiyi kimi <u>«kişi və qadın» sözləri</u> ilə əvəz edilməklə konkretləşdirilməlidir. Buna görə də, təklif edirik ki, Ailə Məcəlləsinin 9.5 maddəsində «nikaha daxil olmaq istəyən şəxslər», 10.2 maddəsində «nikaha daxil olmaq istəyən», 11.1 maddəsində «nikaha daxil olan şəxslərin», 13 maddəsinin adında və mətnində istifadə edilən «nikaha daxil olmaq istəyən şəxslərin» söz birləşməsi «nikaha daxil olan şəxslər – kişi və qadın» söz birləşməsi ilə əvəz edilsin[1].

**24.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan halları tənzim edən 12-ci maddəsinə aşağıdakı yeni bəndin əlavə edilməsi təklif olunur:

«12.0.1. qan qohumları, yaxın qohumlar (valideynlər və uşaqlar, baba, nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaşlar və bacılar)».

---

[1] Azərbaycan Respublikasının Ailə Məcəlləsi. B., Hüquq yayın evi, 2016.

**25.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan halları tənzim edən 12-ci maddəsinə aşağıdakı yeni bəndin əlavə edilməsi təklif olunur:

«12.0.5. eyni cinsdən olan şəxslər arasında».

**26.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif olunur:

«Maddə 15. Ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması

Ailədə ən kiçik uşağın 7 yaşı tamam olmadan, uşaqlı ailənin mənzil problemi həll edilmədən, habelə arvadın hamiləliyi dövründə ər, nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz».

**27.** Ailə Məcəlləsinin 19.1 maddəsində «pozulur» sözündən sonra aşağıdakı məzmunda cümlənin əlavə edilməsi təklif edilir:

«Məhkəmə, nikahın pozulması barədə ər və ya arvadın ərizə verməsinin səbəblərini müəyyən etməyə, ər-arvadı barışdırmaq üçün mümkün olan bütün tədbirləri görməyə borcludur».

**28.** Azərbaycan SSR-nin 20 dekabr 1969-cu il tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan SSR Nikah və Ailə Məcəlləsi»nin 41-ci maddəsində ailənin qorunub saxlanılmasına xüsusi diqqət verilirdi. Orada göstərilirdi ki, ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının daha mümkün olmadığı məhkəmə tərəfindən müəyyən edildiyi hallarda nikah pozulur. Qüvvədə olan Ailə Məcəlləsində isə belə şərt nəzərdə tutulmamışdır. Ər-arvad arasında barışıq olmadıqda və ya onlar nikahın pozulmasına təkid etdikdə, nikah pozulur. Məhz buna görə son illər ölkədə boşanma halları xeyli dərəcədə asanlaşmış və çoxalmışdır. Ailənin qorunub saxlanılması üçün mümkün olan bütün tədbirləri təmin etmək üçün Ailə Məcəlləsinin 20-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

«20.1. ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının daha mümkün olmadığı müəyyən edildikdə, nikah pozulur».

**29.** Ailə Məcəlləsinin 22.2.1-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

«22.2.1. Boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqlardan valideynlərin hansının yanında qaldığını müəyyən etməli, əgər uşaq həmin valideynin yanında deyildirsə, onun digər valideyndən alınıb yanında qalması müəyyən edilən valideynə verilməsi məsələsi həll edilməlidir. Bu zaman uşağın hansı valideynin yanında qalması və alimentin miqdarının müəyyən edilməsi hallarında, uşağın üstün mənafeyinin təmin olunması əsas götürülməlidir».

**30.** Ailə Məcəlləsinin 23.3-cü maddəsində «çıxarış» sözündən sonra «nikahın pozulmasının dövlət qeydiyyatı üçün» söz birləşməsinin əlavə edilməsi təklif edilir.

**31.** Ailə Məcəlləsinin 26.1.7-ci maddəsinə görə, saxta nikahın etibarsızlığı barədə iddia qaldırmaq hüququ ancaq ər və arvada verilmişdir. Ərin və yaxud arvadın sağlığında, bu qayda məqsədəuyğun hesab oluna bilər. Məhkəmə təcrübəsində ər və arvadın hər hansı birinin ölümündən sonra, digər maraqlı şəxslər tərəfindən belə iddiaların qaldırılması hallarına təcrübədə təsadüf olunur. Məsələn, mirasa sahib olmaq

məqsədi ilə bağlanılmış saxta nikahın etibarsız hesab edilməsi barədə vərəsələr tərəfindən qaldırılan iddialar buna misal ola bilər. Onların iddia hüquqlarının olmaması, saxta nikahın bağlanması nəticəsində pozulmuş hüquqlarının və mənafelərinin müdafiəsinə imkan vermir. Bununla bağlı həmin maddə mükəmməl hesab edilmir və onun təkmilləşdirilməsi zəruridir. Buna görə də Ailə Məcəlləsinin 26.1.7 maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

«26.1.7. saxta nikah bağlandığı halda saxta olmasını bilməyən ər (arvad) və digər maraqlı şəxslər».

**32.** Ailə Məcəlləsinin 29.1 maddəsində «ailə münasibətlərində» sözündən sonra «ailə idarəçiliyində» söz birləşməsinin əlavə edilməsi təklif olunur.

**33.** Ailə Məcəlləsinın 30.4-cü maddəsində nikah pozulduqda ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək ər-arvadın subyektiv hüquqları kimi müəyyən olunmuşdur. Həmin maddədən belə çıxır ki, nikah pozulduqda ər-arvad nikah bağladıqları zaman götürdükləri ümumi soyadının saxlanılmasına etiraz edə bilməzlər. Təcrübə göstərir ki, nikah pozulduqda keçmiş ər-arvad adətən ümumi soyadın saxlanılmasına etiraz edir və onların əvvəlki soyadlarına keçmələrini tələb edirlər. Soyada hüququn şəxsi xarakter daşıması baxımından hesab edilir ki, buna ancaq soyadın ilkin daşıyıcısı olan ər və arvadın razılığı ilə yol verilə bilər. Buna görə də Ailə Məcəlləsinin 30.4 maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

«30.4. nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna, yalnız onların öz razılığı ilə yol verilə bilər».

**34.** Ailə Məcəlləsinin 32-ci maddəsinə görə ər-arvadın nikah müddətində əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Özəlləşdirmənin ayrı-ayrı növlərinə əsasən (Böyük Vətən Müharibəsi iştirakçılarına, müəllimlərə, az təminatlı ailələrə mənzillərin əvəzsiz verilməsi, əvəzli özəlləşdirmə, umümi qaydada özəlləşdirmə) əldə edilmiş mənzillərin ər-arvadın ümumi birgə mülkiyyəti olması məhkəmə təcrübəsində mübahisələrə səbəb olur. Buna görə də həmin normada Böyük Vətən Müharibəsi iştirakçılarına, müəllimlərə, az təminatlı ailələrə mənzillərin əvəzsiz verilməsi, əvəzli özəlləşdirmə, ümumi qaydada özəlləşdirmə kimi halların istisnasız olaraq nəzərə alınaraq, onların hər birinə fərdi məxsus olması amilinin nəzərə alınması təklif edilir.

**35.** Ailə Məcəlləsinin 36.9-cu maddəsinə əsasən nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında iddialara 3 illik iddia müddəti tətbiq edilir. Mülkiyyət mülki hüququ anlayış olduğuna görə hesab edilir ki, bu müddəa Mülki Məcəllənin 384-cü maddəsinə uyğun deyildir və normalar arasında ziddiyyət vardır. Həmin maddəyə görə mülkiyyət hüququna iddia müddəti tətbiq edilmir. Buna görə də nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında iddianın müddətinə 384-cü maddənin tətbiq edilməsi və Ailə Məcəlləsinin 36.9-cu maddəsinin çıxarılması təklif edilir.

**36.** Ailə Məcəlləsinin 52-ci maddəsinə görə məhkəmə, qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə müvafiq qərar qəbul edə bilər. Təcrübədə valideynlərdən hər hansı biri tərəfindən uşağın «ələ alınması» və yaxud şirnikləndirilməsi hallarına rast gəlmək tamamilə mümkündür. Bu baxımdan həmin

maddədə müvafiq dəyişikliklər edilməklə, müəyyən edilə bilər ki, məhkəmə, qəyyumluq və himayə orqanı uşağın fikrini nəzərə almaqda haqlıdır. Beləliklə, Ailə Məcəlləsinin 52-ci maddənin sonuncu cümləsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

«...Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı, yalnız 10 yaşına çatmış uşağın fikrini nəzərə almaqda haqlıdır».

**37.** Ailə Məcəlləsinin 53.3 maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Uşağın soyadı, bir qayda olaraq valideynlərin razılığı əsasında atanın soyadı ilə müəyyən edilir. Valideynlərinin soyadları müxtəlif olduqda, uşağın soyadı, valideynlərin razılığı əsasında ananın soyadı ilə də müəyyən edilə bilər. Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur».

**38.** Ailə Məcəlləsinin 64.0.7-ci maddəsinə görə ərin və yaxud arvadın bir-birinin sağlamlığına və ya həyatına qarşı qəsdən cinayət etməsi halları valideynlik hüququndan məhrum etmə üçün əsas sayılır. Lakin hesab edirik ki, bu zaman qanunverici ədalət prinsipinə riayət etməmişdir. Belə ki, göstərilən əsaslar valideynlik hüququndan məhrum etmənin mahiyyəti ilə bilavasitə bağlı hesab oluna bilməz. Buna görə də 64-cü maddənin «64.0.7» bəndinin çıxarılması təklif edilir.

**39.** Aliment probleminin birdəfəlik həllini təmin etmək üçün «Aliment Fondu»nun yaradılması zəruridir. Bu məqsədlə Ailə Məcəlləsinə «Aliment Fondu» adlı aşağıdakı məzmunda, yeni «113a» maddəsinin əlavə edilməsi təklif edilir:

«Maddə 113a. Aliment Fondu

113a.1. Ailə münasibətlərində aliment öhdəliklərinin vaxtında və zəruri məbləğdə ödənilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin nəzdində «Aliment Fondu» yaradılır.

113a.2. «Aliment Fondu» dövlət büdcəsi, ayrı-ayrı tutulmalar, ianələr, xeyriyyə tədbirləri, reqres iddialardan əldə edilən məbləğlər və digər qanuni mənbələr hesabına formalaşdırılır».

**V. Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsinə dair təkliflər:**

**40.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 5.1 maddəsinə aşağıdakı dəyişikliklərin edilməsi təklif olunur:

Mülki Məcəllənin «Mülki hüquq münasibətlərinin subyektləri» adlanan 5.1 maddəsində «ola bilər» sözündən sonra aşağıdakı məzmunda əlavə edilməsi təkli edilir:

«Ailə mülki hüquq münasibətlərinin subyektidir».

**VI. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin təkmilləşdirilməsinə dair təkliflər:**

**41.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.3-cü maddəsinə aşağıdakı dəyişikliyin edilməsi təklif olunur:

Mülki Prosessual Məcəllənin 307.2.3-cü maddəsinə görə doğum və yaxud ölüm faktının müəyyən edilməsi müəyyən çətinliklər yaradır. Məhkəmə təcrübəsində isə doğum və ölüm faktlarının müəyyən edilməsi ilə əlaqədar olaraq ərizələrə daha çox

təsadüf edilir. Bütün bunlar nəzərə alınaraq Mülki Prosessual Məcəllənin 307-ci maddəsində doğum və yaxud ölüm faktının məhkəmə qaydasında müəyyən edilməsi barədə müvafiq düzəliş aparılmalıdır.

**42.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 307.2.4-cü maddəsinə aşağıdakı dəyişikliyin edilməsi təklif olunur:

Mülki Prosessual Məcəllənin 307.2.4-cü maddəsinə əsasən qanunla müəyyən olunmuş hallarda faktiki nikah münasibəti müəyyən edilə bilər. Lakin qanunvericiliyimizdə hələ də bununla əlaqədar müstəqil norma yoxdur. Hüquqi əsası olmadığına görə həmin ərizələr bir qayda olaraq təmin edilmir. Ölkəmizin müharibə vəziyyətində olması ilə əlaqədar olaraq məhkəmə təcrübəsində belə ərizələrə tez-tez təsadüf edilir. Buna görə də bu məsələnin həll edilməsi və Mülki Prosessual Məcəllənin 307.2.4-cü maddəsində göstərdiyimiz halların nəzərə alınması təklif edilir.

**VII. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təkmilləşdirilməsinə dair təkliflər:**

**43.** AR Cinayət Məcəlləsinə aşağıdakı məzmunda yeni maddələrin əlavə edilməsi təklif edilir:

- «Maddə 156-1.1. Şəxsi və ailə həyatının toxunulmazlığını pozma

Şəxsi və ailə həyatına özbaşına müdaxilə, ailədaxili məsələlərə qanunsuz qarışma, ailənin və şəxsin həyatının toxunulmazlığını pozmağa yönəlmiş əməllər –

beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətdə islah işləri ilə cəzalandırılır.

- «Maddə 156-1.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə, təkrar törədildikdə və ağır nəticələrə səbəb olduqda –

üç ilədək müddətdə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğulluq hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

**44.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12-ci fəslinin adı dəyişdirilərək «Ailə münasibətləri əleyhinə olan cinayətlər» fəsli yaradılmalı və bununla bağlı bütün maddələr bu fəsildə cəmlənməlidir[1].

**45.** «Məişət zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanunun adının dəyişdirilərək «Ailə zorakılığının qarşısının alınması haqqında» Azərbaycan Respublikasının Qanunu adlandırılması təklif edilir. Eləcə də Cinayət Məcəlləsində və digər əlaqədar normativ-hüquqi aktlarda terminin «ailə zorakılığı» adlandırılması məqsədəuyğun hesab edilir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiya tədqiqatı zamanı əldə olunmuş nəzəri nəticələr, çoxsaylı təkliflər və irəli sürülmüş müddəalar ailənin və nikahın konstitusiya hüquqi statusunun metodoloji bazasının müasirləşməsini və möhkəmləndirilməsini təmin edə bilər. İşdə ailənin və nikahın konstitusiya hüquqi statusunun müasir tələblər baxımından müəyyən edilməsi, ailə və ailə münasibətləri ilə əlaqədar olan terminlərə aydınlıq gətirilmiş, qadın hüquqlarının və

[1] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. B., 2016, I və II cild

azadlıqlarının, ailənin hüquqlarının qorunması, məişət zorakılığına qarşı mübarizənin təkmilləşdirilməsinə, yeni ailə məhkəmələrinin yaradılmasına, Ailə Məcəlləsinin ayrı-ayrı normalarının yeni redaksiyalarda verilməsinə, ailə və uşaq hüquqlarının müdafiə və mühafizə mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər, konstitusiya hüququnun, beynəlxalq hüququn və ailə hüququnun daha da mükəmməllşməsini təmin edə bilər. Bu sahədə aparılan tədqiqatların daha da təkmilləşdirilməsi, konstitusiya hüququ, beynəlxalq hüquq və ailə hüququ sahəsində tədrisin və tədqiqatın əhəmiyyətli dərəcədə yaxşılaşmasında faydalı ola bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və onun yerli orqanlarının, qeyri-hökumət təşkilatlarının, beynəlxalq və regional təşkilatların, hüquq-mühafizə orqanlarının, pedaqoji kollektivlərin, elm və tədris müəssisələrinin fəaliyyətində istifadə oluna bilər. Tələbələr, doktorantlar, müəllimlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri və ictimai fəallar, hüquq-mühafizə və məhkəmə orqanlarının əməkdaşları dissertasiyanın çoxsaylı elmi nəticələrindən, təkliflərdən və elmi müddəalarından istifadə edə bilərlər.

Müəllifin çoxsaylı məqalələri və monoqrafiyaları elmi-nəzəri fəaliyyətdə yaradıcılıqla istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının keçmiş Fəlsəfə və Hüquq İnstitutunda, Hüquq və İnsan Haqları İnstitutunda, Bakı Dövlət Universitetində, İdarəçilik Akademiyasında, Polis Akademiyasında, Rusiya Federasiyasında, Ukraynada, Qazaxıstan Respublikalarında, Türkiyədə, Bolqarıstanda, ABŞ-da və bir sıra başqa ölkələrdə keçirilən beynəlxalq, regional və milli səviyyədə keçirilən elmi konfranslarda müəllifin şəxsən və ya elmi məqalələr ilə edilmiş məruzələri, çıxışları və digər iştirak formaları ilə aprobasiyadan keçirilmişdir. Tədqiqat zamanı müəllifin, ümumiyyətlə 130 çap vərəqindən çox yeddi monoqrafiyası, o cümlədən mövzu ilə bağlı dörd monoqrafiyası, səksənə qədər məqaləsi ölkədə və xaricdə, nüfuzlu elmi jurnallarda türk, rus, ingilis, qazax, ukrayna, bolqar və Azərbaycan dillərində çap edilmişdir. Bu məqalələrin on beşi beynəlxalq, on beşi respublika konfranslarının materiallarında dərc edilmişdir. Ulu Öndər Heydər Əliyevin doğum günləri, dövlət müstəqilliyinin bərpası, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Konstitusiya Məhkəməsi, Ombudsman Aparatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitəsi, Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Polis Akademiyası, Müəllimlər İnstitutu və digər qurumlarla birlikdə keçirilən «Hüquq elminin müasir problemləri və həlli yolları», «Məişət zorakılığı ilə mübarizənin müasir problemləri», «Cinayətkarlıqla mübarizə», «Qadın və uşaq hüquqlarının müdafiəsinin, səmərəliliyinin artırılması, Dağlıq Qarabağ münaqişəsi, qadın və uşaq hüquqlarına təhdid», «İnsan hüquq və azadlıqlarının mühafizəsinin və müdafiəsinin aktual problemləri» və digər bu kimi mövzularda keçirilən beynəlxalq, regional və milli səviyyəli konfranslarda işin aprobasiyası təmin edilmişdir. «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsi Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmiş müsbət qiymətləndirilmiş və qanunvericiliyin təkmilləşdirilməsi zamanı nəzərə alınacağına dair cavab məktubu alınmışdır. Eləcə də tədqiqat nəticəsində Azərbaycan Respublikası Konstitusiyasının

«Ailə, uşaqlar və dövlət» adlanan 17-ci maddəsinin, «Nikah hüququ»na həsr olunmuş 34-cü maddəsinin, Ailə Məcəlləsinə təklif olaraq hazırlanmış 6 «a» maddəsinin, eləcə də Ailə, Mülki, Mülki-Prosessual, Cinayət Məcəllələrinə edilmiş çoxsaylı təkliflər dissertasiya işində və avtoreferatda tam əks olunmuşdur.

**Dissertasiyanın strukturu.** Doktorluq dissertasiyası giriş, nəticə, on yarımfəsli əhatə edən beş fəsildən, istifadə olunmuş ədəbiyyat siyahısından, işə əlavə edilmiş «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında» Qanun layihəsinin mətnindən, müxtəlif məcəllələrə, normativ-hüquqi aktlara dair verilmiş çoxsaylı təkliflərdən ibarət olmaqla, bitkin və monoqrafik səciyyə daşıyır.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, onun elmi cəhətdən işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri göstərilmiş, metodikası və nəzəri əsasları müəyyənləşdirilmiş, tədqiqat zamanı müəllifin gəldiyi nəticələr, işin elmi yenilikləri, müdafiəyə çıxarılan əsas elmi müddəalar göstərilmiş, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti açıqlanmış, nəticələrin tətbiqi əhəmiyyəti, işin aprobasiyası şərh edilmiş və son olaraq dissertasiyanın strukturu əks etdirilmişdir.

Dissertasiyanın birinci fəsli «Azərbaycan Respublikasında ailə institutunun konstitusiya hüquqi statusunun mahiyyəti və təkamülü» məsələlərinə həsr edilmişdir. Bu problemin tədqiqi üçün birinci fəsil iki yarımfəsildən ibarət müəyyən olunmuşdur. Birinci yarımfəsil «Azərbaycan Respublikasında ailə institutunun konstitusiya hüquqi statusunun mahiyyəti və tarixi təkamülü»nə həsr edilmişdir. Bu yarımfəsildə cəmiyyətin ən qədim və ən dəyərli təsisatı olan ailənin tarixi təkamülünə yer ayrılır, onun ictimai, siyasi, iqtisadi, sosial, mənəvi və hüquqi əhəmiyyəti göstərilir. Ailənin cəmiyyətdəki yerini və rolunu müəyyən etmək üçün ilk öncə, bioloji və sosial varlıq olan insana və insanların könüllü birliyi hesab edilən ailənin mahiyyətinə aydınlıq gətirilir. Qeyd olunur ki, ailə, cəmiyyətin inkişafının müəyyən mərhələsində insan birliyi olaraq tarixi zərurətdən yaranmış, uzun bir təkamül yolu keçmiş və bu gün özünün ən yüksək inkişaf mərhələsini yaşamaqdadır. Problemin kompleks elmi-nəzəri tədqiqini təmin etmək üçün ailə institutuna definisiya verilmiş, onun sosial, iqtisadi, psixoloji, mənəvi və hüquqi mahiyyətinə aydınlıq gətirilmişdir. Ailəyə, onun strukturunda təmsil olunan valideynlərə - kişiyə və qadına, habelə uşaqlara ilk dəfə olaraq definisiyalar verilmiş və onun bir sistem kimi öyrənilməsinin vacibliyi əsaslandırılmışdır. Böyümüş və mürəkkəbləşmiş cəmiyyəti idarə etmək üçün dövlət, hakimiyyət, onun strukturunu və səlahiyyətlərini müəyyən edən konstitusiyaların yaradılmasının vacibliyi və əhəmiyyəti göstərilmişdir. Qədim tarixə malik olan Azərbaycanda ailənin mühüm bir dəyər olaraq konstitusiyada təsbiti Ulu Öndər Heydər Əliyev tərəfindən 1978-ci ildə təmin olunmuşdur. Müstəqillik illərində referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında ailənin hüquqi statusu bir institut olaraq təsbit edilmişdir. Ailənin statusu konstitusiyaya müvafiq olaraq sahəvi normativ-hüquqi aktlarla, Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzim edilir. Bu gün müasir ailə müstəqil Azərbaycanda ən yüksək və ən əhəmiyyətli bir institut, ən əhəmiyyətli bir dəyər kimi qəbul edilir. Ailənin sosial mahiyyəti, onun funksiyaları, vəzifələri hüquqi baxımdan ətraflı tədqiq edilmiş, onun cəmiyyətdə insan nəslini yetişdirən ən mühüm fenomen olduğu əsaslandırılmışdır. Qeyd edilmişdir ki, müasir Azərbaycan Respublikasında ailə, öz ictimai, siyasi, sosial və hüquqi əhəmiyyətinə, strukturuna, funksional parametrlərinə, cəmiyyətin inkişafının əsas tendensiyalarının müəyyən edilməsinə, sosiomədəni mühitə göstərdiyi fəal təsir effektlərinə, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanmasına, insanın, cəmiyyətin və dövlətin təşəkkülünə, bu günkü yüksək

inkişafina əhəmiyyətli təsir göstərən fenomenal, sosiomədəni və hüquqi təsisatdır. Hüquqi baxımdan ailə – qanunla müəyyən edilmiş nikah yaşına çatmış qadının və kişinin, qarşılıqlı məhəbbətinə, hüquq bərabərliyinə, biri-birinə olan hörmətinə, yardımına, məsuliyyətinə, ailənin ümumbəşəri prinsiplərinə və dəyərlərinə əsaslanan, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən, ailə qurmaq məqsədilə yaradılmış və müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilmiş nikah əqdi əsasında yaradılan könüllü insan birliyi, ər-arvad ittifaqıdır[1]. Referendumlar vasitəsi ilə ailənin konstitusiya hüquqi statusu daha da təkmilləşdirilmiş, qadının, uşağın ailə sistemində müstəqil alt sistemlər kimi təhlili aparılmış və hər birinin hüquqları, vəzifələri və azadlıqları müəyyən edilmişdir. Ailə üzvlərinin say tərkibinə, ailə münasibətlərinin keyfiyyıət göstəricilərinə, münasibnətlərin və qohumluq dərəcələrinin fərqli məzmununa görə tarixi ailə tiplərinə, formalarına, məzmununa, məqsədlərinə və vəzifələrinə aydınlıq gətirilmişdir. Ailə, nikah, qan qohumluğu və doğma insanların birliyini ehtiva edir. Ailə üzvləri arasında məsuliyyət və qarşılıqlı cavabdehlik münasibətləri formalaşır. Ailə Məcəlləsi ailə və ailə münasibətlərinin konstitusiyaya və beynəlxalq hüquq normaları əsasında tənzimlənməsini təmin edir. Cəmiyyətin, dövlətin və şəxsiyyətin həyatında ailə qədər güclü təsir imkanlarına malik olan başqa bir insan birliyi yoxdur. O cəmiyyətin əsasını və nüvəsini təşkil edir. Konstitusiya və onun müddəalarını həyata keçirən normativ-hüquqi aktlar, məcəllələr ailə münasibətlərini tam tənzim edir. Qeyd edilmişdir ki, əhalisi 10 milyon, ailəsi 2 milyon 65 min nəfər olan Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi respublikanın qurulması, ailə institutunun konstitusiya hüquqi statusunun beynəlxalq hüquq normaları ilə müqayisəli tədqiqinin vacib olduğunu şərtləndirir. Cəmiyyətdə və dövlət həyatında bütün proseslər ailə və insanla bağlı olaraq baş verir. Qloballaşma mərhələsində ölkənin ictimai-siyasi və iqtisadi həyatında baş verən proseslər ailəyə müəyyən mənfi təsir göstərmiş, ailələrin dağılması, doğumun azalması, uşaqların və qadınların hüquqlarının və azadlıqlarının böhranla üzləşməsi bu problemin tədqiqini daha da aktuallaşdırmışdır. MDB məkanında ilk dəfə olaraq Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Milli ailə strategiyasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi əsası, ölkə prezidenti, cənab İlham Əliyev tərəfindən inamla davam etdirilmiş və möhkəmləndirilmişdir. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və ISESCO-nun Xoşməramlı Səfiri, republikanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyeva ailə, qadın və uşaq problemlərinin uğurlu həllinə daim böyük diqqət yetirmiş və bu xeyirxah missiya bu

[1] Salmanova N.Ə. Azərbaycanda ailə-nikah münasibətlərinin inkişafı. B., 2013. S.7-14; Ailə Məcəlləsinin yozumu. B., 2005. S.12-24; Manayev Q.İ. Sovet ailə hüququ. B., 1989. S.3-6; Антокольская М.В. Семейное право. М., 2000. S. 9-36, 86-94; Общество: государственность и семья. М., 2010. с.7-14; Алиев Ш. Научно-практический комментарий к конституции Азербайджанской Республики. Б., 2000. с.63, 121

gün də davam etdirilməkdədir[1]. Ailə Azərbaycan dövləti və Azərbaycan xalqı üçün müqəddəs dəyər hesab edilir. Buna görə də müstəqillik illərində Azərbaycan Respublikası Konstitusiyası keçirilən üç referendumla daha da təkmilləşdirilmiş, ailənin və uşaqların sosial problemlərinin həlli və konstitusiya hüquqi statusunun sistemli və kompleks təkmilləşdirilməsi təmin edilmişdir.

Birinci fəslin ikinci yarımfəsli «Azərbaycan ailəsinin konstitusiya hüquqi statusunun beynəlxalq və milli hüquqi müqayisəsi» adlandırılmışdır. Qeyd edilmişdir ki, müstəqillik illərində Azərbaycan Respublikası BMT-nin, Avropa Şurasının, İƏT-nın və onlarla digər beynəlxalq təşkilatların üzvlüyünə qəbul edilmiş və beynəlxalq birlik qarşısında öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. Müstəqil, demokratik, dünyəvi və hüquqi respublika quran Azərbaycan öz qanunvericilik normalarını beynəlxalq standartlara müvafiq olaraq tam yenidən hazırlamış və qəbul etmişdir. Buna görə də Azərbaycan cəmiyyəti üçün son dərəcə mühüm əhəmiyyət kəsb edən ailənin konstitusiyada hüquqi statusunun təsbit edilməsi və onun sahəvi məcəllələrlə tənzim edilməsi beynəlxalq standartlara əməl edilməklə hazırlanıb, qəbul edilmişdir. BMT-nin «İnsan hüquqları Bəyannaməsi»ndə «bəşər ailəsi» istilahı işlədilmiş, əsas missiyası sülhün və əmin-amanlığın təmin edilməsinə səfərbər olmuş BMT-də, onun qəbul etdiyi Konvensiyalarda, beynəlxalq paktlarıda, fakültetiv prokotollarda ailənin, cəmiyyətin özəyi olduğu, nikahın kişi və qadın hüquqlarının bərabərliyinə və könüllülüyünə əsaslandığı qeyd edilmişdir. Bu bəşəri normalar Avropa Konvensiyasında, başqa beynəlxalq sənədlərdə də öz ifadəsini tapmışdır. Beynəlxalq təşkilatlar vaxtaşırı olaraq ailənin statusuna, ailə üzvlərinin hüquqlarının və vəzifələrinin təmin olunmasına xüsusi diqqət yetirmiş və üzv ölkələrə bu sahədə müvafiq köməkliklər göstərmişlər. Tədqiqat zamanı beynəlxalq hüquq normalarına əsaslanan və onların standartlarına müvafiq olaraq hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi, Mülki Məcəllə, uşaq hüquqları haqqında normativ-hüquqi aktlar müqayisəli təhlil edilmiş, müsbət və mənfi cəhətləri göstərilmiş və onların təkmilləşdirilməsinə dair təkliflər irəli sürülmüşdür. Konstitusiyanın ailə, uşaq və dövlət münasibətlərinə, nikah hüququna dair müddəaları beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş standartlara müvafiq olaraq hazırlanıb, qəbul edilmişdir. Almaniyanın, Rusiyanın, Türkiyənin, Fransanın, Yunanıstanın və digər ölkələrin konstitusiyalarında ailə institutunun hüquqi təsbitinə xüsusi yer ayrılmış, onların Azərbaycan Respublikası Konstitusiyası ilə müqayisəli təhlili aparılmış, üstün cəhətləri göstərilmişdir. Ailə və ailə münasibətlərinin təsbitində və tənzimlənməsində müstəqillik dövründə Ulu Öndər Heydər Əliyevin və onun layiqli varisi, cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər təhlil edilmiş, onların mütərəqqi xarakteri və səciyyəvi cəhətləri göstərilmişdir. Müstəqil bir institut olaraq ailənin daxili işlərinə qarışmaq yolverilməz hesab olunmuş, ailə-din, ailə-cəmiyyət, ailə-dövlət, ailə-insan münasibətləri müqayisəli tədqiqatlara cəlb edilmişdir. Müstəqillik illərində ailə, ailə üzvləri və uşaqlara göstərilən diqqət və

---

[1] İbrahimov Z. Heydər Əliyev Fondu: şəxsiyyətin fenomeni və milli-mənəvi dəyərlər. B., Çıraq, 2013. Azərbaycan ailəsi. B.,2016.

qayğı ailə problemlərinin həlli, ölkə siyasətinin prioritet istiqaməti hesab olunmuşdur. Bu sahədə çoxsaylı Dövlət Proqramları və layihələr bir daha təsdiq edir ki, ölkədə ailənin inkişafına böyük diqqət yetirilir. Elə cəmiyyətdə əldə edilən böyük uğurların əsas səbəblərindən biri də məhz bununla bağlıdır. Tədqiqat zamanı Konstitusiyanın 17-ci maddəsinin yeni layihəsi təqdim edilmişdir. Bu maddə «Ailə, uşaq və dövlət» adlandırılmaqla, ailənin definisiyası verilmiş, ailə münasibətlərinin yaranma əsasları və şərtləri göstərilmişdir. Dissertasiya işində və avtoreferatda Konstitusiyasının 17-ci maddəsinin yeni redaksiya mətni tam verilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının hazırda qüvvədə olan 17-ci maddəsinin mətni ilə, yeni təklif edilən 17-ci maddənin müqayisəli tədqiqi, təklifin kifayət qədər əsaslı və əhəmiyyətli olduğunu sübut edir. Yeni təklif edilən mətndə ailənin və uşağın definiyası verilmiş, ailənin cəmiyyətdə yeri və rolu, onun üzvü olan subyektlərin hər birinin statusu, ailənin və nikahın hüquqi əsasları göstərilmiş, nikahla və yaxud nikahsız doğulmuş uşaqların eyni sosial müdafiədən istifadə etmək hüququ əsaslandırılmışdır. Ailə, uşaq, valideyn, analıq, atalıq, uşaqlıq və onların statusu beynəlxalq hüquqla müqayiəsli şəkildə kompleks təhlil edilmişdir. İlk dəfə olaraq ailəyə və uşağa konstitusiya hüquqi anlayış verilmiş, onların hər birinin dövlətlə münasibətləri konkretləşdirilmişdir.

Tədqiqat zamanı ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin və mühafizəsinin qüsurlu cəhətləri üzə çıxarılmış, beynəlxalq və milli səviyyədə bəşəri çağırışlara müsbət cavabların verilməsinin vacibliyi göstərilmişdir. Ailənin hüquqlarının, azadlıqlarının və öhdəliklərinin beynəlxalq standartlarının müəyyən edilməsi məqsədilə BMT-nin «Ailənin statusu haqqında», «Qadınların statusu haqqında», «Uşaqların statusu haqqında» XXI əsrin üç müfəssəl və müstəqil Konvensiyalarının qəbul edilməsinin zəruriliyi əsaslandırılmış və bu məqsədlə müvafiq dövlət qurumlarının BMT qarşısında təşəbbüslə çıxış etməsi təklif edilmişdir. Bu Konvensiyalarda ailənin, qadının və uşağın hüquqlarının mahiyyəti, məzmunu, prioriteti, müdafiə və mühafizə mexanizmlərinin, habelə beynəlxalq standartlarının müəyyən edilməsi təmin olunmalıdır. Bu Konvensiyaların qəbul edilməsi üzv dövlətlərin də müvafiq normativ-hüquqi aktlarının hazırlanması və qəbul edilməsi üçün baza və standart rolunu oynaya bilər. Qeyd edilmişdir ki, mötəbər beynəlxalq təşkilat hesab olunan BMT-nin müvafiq qərarlarının icra olunmaması, onun hörmətini aşağı salır və fəaliyyətində ciddi çətinliklər yaradır. BMT-nin qərarlarının həyata keçirilməsini təmin etmək məqsədilə «BMT-nin Qərarlarının icrası üzrə Konvensiya»nın hazırlanması və qəbul olunması təklif edilmişdir. Belə təkliflərin reallaşdırılması ailənin konstitusiya-hüquqi statusunun daha da möhkəmləndirilməsini və ailənin cəmiyyətdəki rolunun artırılmasını təmin edəcəkdir.

Dissertasiya işinin ikinci fəsli «Azərbaycan ailəsinin hüquqi statusunun səciyyəvi cəhətləri, əsas funksiyaları və vəzifələri» adlandırılmışdır. Mürəkkəb, müasir və aktual olan bu problemlərin tədqiqini təmin etmək üçün mövzuya iki yarımfəsil ayrılmışdır. İkinci fəslin birinci yarımfəsili «Demokratik hüquqi dövlət quruculuğu konteksində ailə-sosial dövlət münasibətlərinin konstitusiya və beynəlxalq hüquqi əsasları»nın tədqiqinə həsr edilmişdir. Qeyd edilmişdir ki, Kommunist Partiyasının hakim mövqedə olduğu totalitar rejimdən fərqli olaraq, referendum yolu ilə qəbul

edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında ölkəmizdə demokratik, hüquqi, dünyəvi respublika qurulacağı, hər kəsin sosial firavanlığının yüksəldiləcəyi, xalqın və hər bir vətəndaşın sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin ediləcəyi prioritet inkişaf istiqamət kimi seçilmişdir. Müstəqillik illərində demokratik və hüquqi dövlət quruculuğunun hüquqi əsasları təsbit edilmiş, vətəndaş cəmiyyətinin bərqərar edilməsi üçün sistemli tədbirlər həyata keçirilmiş, hüquqi, dünyəvi respublika quruculuğunun konstitusiya əsasları möhkəmləndirilmiş, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğu nəzərdə tutulmuşdur. Hakimiyyətin yeganə mənbəyinin Azərbaycan xalqı olduğu bəyan edilmiş, xalqın və dövlətin suverenliyi təsbit olunmuş, millətin taleyi ilə bağlı qlobal məsələlərin ümumxalq səsverməsi – referendum yolu ilə həlli qaydası müəyyənləşdirilmişdir. BƏT-nın Nizamnaməsinin mühüm bir hissəsi olan Filadelfiya Bəyannaməsində göstərildiyi kimi, sosial təminatın – xalqın yoxsulluq, işsizlik, qocalıq, əlillik, ölüm səbəbləri, qismən və ya tamamilə düşəcəyi maddi vəziyyətlərə qarşı, ailədə uşağın sayının artırılması və ya azalması ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemini əhatə etdiyi əsaslandırılmışdır. Müstəqillik illərində Dağlıq Qarabağ münaqişəsi kontekstində bir milyondan çox qaçqının və köçkünün mövcudluğu, iqtisadi quruluşun köklü dəyişilməsi, inkişafın müxtəlif mülkiyyət münasibətlərinə əsaslanaraq, bazar münasibətlərinin, sosial yönümlü iqtisadiyyatın, azad sahibkarlığın əsas inkişafı, xalqın rifahının yüksəldilməsinə səfərbər edilmişdir. Cəmiyyətin və dövlətin əsası kimi təqdim edilən ailənin, onun tərkibində təmsil olunan qadınların və uşaqların dövlətin xüsusi hiamyəsində olması, sosial rifahın, maddi təminatın və mənzil şəraitinin inkişafı vacib hesab edilmişdir. Müharibə, münaqişə, ziddiyyət, işsizlik, yoxsulluq, ictimai münasibətlərin köklü dəyişikliklərə məruz qalması və s. bu kimi proseslər tədricən azaldılmış və ölkənin inkişafının sosial dövlət münasibətlərinə uğurlu keçidi təmin olunmuşdur. Cəmiyyətin iqtisadi və sosial əsasının daha çox ailə və uşaqlara təsir etməsi halları nəzərə alınaraq, müstəqillik illərində köklü sosial islahatlar aparılmış, sosial qanunvericilik yeni müasir tələblərə uyğunlaşdırılaraq, tam yenidən hazırlanmış, təşkilati-hüquqi tədbirlər görülmüşdür. Ailələrin, uşaqların, xəstələrin, əlillərin, kimsəsizlərin maddi rifahı yaxşılaşdırılmış, səhiyyədə, təhsildə və elmdə əsaslı islahatlar aparılmışdır. Ölkədə sosial siyasətin kompleks dövlət proqramları əsasında sistemli surətdə həyata keçirilməsinin müsbət nəticələri yüksək qiymətləndirilmişdir. Ailənin və uşaqların tərbiyəsi, təhsili, sağlamlığı müstəqillik illərində köklü və müsbət dəyişikliklərə məruz qalmış, demoqrafik proseslərin, gənclərlə aparılan işin, inkişafın gələcək perspektivlərinin və mənzil probleminin həllinə göstərilən diqqət artırılmışdır. Gənclərin və yeniyetmələrin sayının ildən-ilə artması, bu kateqoriyadan olan şəxslərin sağlamlığının, təhsilinin, mənzil və iş problemlərinin həllinə dövlət səviyyəsində diqqətin artırılması və bu siyasətin əsas inkişaf istiqaməti kimi seçilməsi təqdirəlayiq hadisə kimi qiymətləndirilmişdir. Üç yüzdən yuxarı təşkilatda təmsil olunan gənclərin əmək və təhsil problemlərinin həlli, təhsil və elm müəssisələrin yenidən qurulması, kompleks idman mərkəzlərinin yaxşılaşdırılması, tolerantlıq, multikultural dəyərlərə geniş yer ayrılması, dünya səviyyəli musiqi və idman tədbirlərinin böyük uğurla keçirilməsi, ölkədə sosial dövlət siyasətinin nəticəsidir. Qeyd edilmişdir ki, dünyanın

inkişaf etmiş ölkələri sırasında özünə möhkəm yer tutmuş Azərbaycan Respublikasında inkişafın və tərəqqinin əsas məqsədi ailələrin, qadınların və uşaqların sosial rifahının yaxşılaşdırılmasına xidmət edir.

İşin ikinci fəslinin ikinci yarımfəsli «Azərbaycanın milli ailə modeli, ailənin əsas funksiyaları və vəzifələri: hüquqi təhlil» problemlərinə həsr edilmişdir. Qədim tarixə malik olan Azərbaycan ailəsi öz milli-mənəvi xüsusiyyətlərinə, dəyərlər sisteminə, məqsəd və vəzifələrinə görə bu gün cəmiyyətin ən hörmətli və ən dəyərli təsisatlarından birinə çevrilmişdir. Etiraf edilməlidir ki, Sovet dövründə Azərbaycan ailəsi müsbət cəhətlərinə və keyfiyyətlərinə görə öz əhəmiyyətini və dəyərini daha da inkişaf etdirmiş və cəmiyyətin aparıcı qüvvəsi olmuşdur. Dünyada gedən qloballaşma və transformasiya prosesləri Qərb ölkələrində ailənin dəyərinə, strukturuna, məqsəd və vəzifələrinə əhəmiyyətli təsir göstərmiş, ailənin tarixi rolu tənəzzülə uğramışdır. Kaliforniya sindromu Qərbdə ailənin daha çox maddi dəyərlərə əsaslandığını və ənənəvi ailənin ciddi böhran keçirdiyini təsdiq edir. Buna baxmayaraq Azərbaycan ailə modeli bütün müsbət tərəfləri ilə dünyada ön sırada dayanan təsisatlardan biri hesab olunur. Azərbaycan ailə modelində kişinin, qadının və hər bir ailə üzvünün öz yeri, öz rolu ənənəvi olaraq formalaşmışdır. Ailənin başçısı olaraq kişinin rolu və məsuliyyəti, ailənin rifahının təmin olunmasında müstəsna əhəmiyyət kəsb edir. Bu gün ailə bir sosial təsisat olaraq onun statusunun konstitusiyada təsbit edilməsi, ona verilən böyük dəyərin nəticəsi kimi qiymətləndirilməlidir. Azərbaycan ailəsi kiçik bir dövlət kimi qəbul edilə bilər. Çoxuşaqlılıq, uzunömürlülük və insanların öz ailələrinə möhkəm bağlılığı əsasında formalaşan milli aile modelinin cəmiyyətdəki nüfuzu və hörməti onun əsas səciyyəvi xüsusiyyətləri kimi dəyərləndirilir. Azərbaycan ailə modeli eynicinsliləri, nikahdankənar ailə əlaqələrini, çoxarvadlılığı, Qərbdən gələn fərqli təzahürləri qəbul etmir. Azərbaycan ailəsi müqəddəs hesab edilir. O cəmiyyətin və dövlətin inkişafında müstəsna əhəmiyyətə malik olan bir təsisatdır. Ailəni və ailə münasibətlərini tənzim edən, ailənin statusunu təsbit edən konstitusiya hüquq normaları öz tənzim etmə predmetinə, dəyərinə, məzmununa, oxşarlığına, təkrarlanan, yekcins və bir tipli olması keyfiyyətlərinə görə konstitusiya və konstitusiya hüquq elminin müstəqil bir institutu hesab edilir.

Tədqiqat zamanı ailə ilə bağlı olan ayrı-ayrı normaların təkmilləşdirilməsinə dair təkliflər irəli sürülmüşdür. Belə ki, Azərbaycan Respublikası Ailə Məcəlləsinin «Nikahın bağlanmasına mane olan hallar»a həsr olunmuş 12-ci maddəsinə, eyni cinslilər arasında nikahın bağlanmasının qanunvericiliklə qadağan edilməsi təklif edilmişdir. Yaxud insan hüquqlarının və azadlıqlarının qorunması adı altında nikah əqdinin çox asanlıqla pozulması halları tənqid edilmişdir. Qeyd edilmişdir ki, bu gün ailənin dağılmasına, cəmiyyətə, ailə üzvlərinə, xüsusilə uşaqlara münasibətdə fövqəladə hal kimi yanaşılması artıq bir zərurətə çevrilmişdir. Buna görə də məhkəmələr nikahın ləğvi ilə bağlı işlərə çox təmkinlə, səbrlə baxmalı və ailənin dağılmaması üçün mümkün olan bütün tədbirləri görməlidirlər. Tədqiqat zamanı Ailə Məcəlləsinin 20.1-ci maddəsinin yeni redaksiyada verilməsi təklif edilmişdir. Orada göstərilmişdir ki, məhkəmələr ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının daha mümkün olmadığını müəyyən etdikdə, müstəsna hal kimi, nikah əqdini

pozmaqda haqlıdırlar. Ailə Məcəlləsinin 22.2.1 maddəsinin «boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqlardan valideynlərinin hansının yanında qaldığını müəyyən etməli, əgər uşaq həmin valideynnin yanında deyildirsə, onun alınıb yanında qalması müəyyən edilən valideynə verilməsi təmin olunmalıdır. Bu zaman uşağın hansı valideynin yanında qalması və alimentin miqdarının müəyyən edilməsi hallarında, uşağın üstün mənafeyinin təmin olunması əsas götürülməlidir» məzmunlu əlavənin edilməsi təklif edilmişdir. Eləcə də həmin Məcəllənin 23.3-cü maddəsində «çıxarış» sözündən sonra «nikahın pozulmasının dövlət qeydiyyatı üçün» söz birləşməsinin əlavə edilməsi təklif edilmişdir.

Məlumdur ki, Ailə Məcəlləsinin 26.1.7-ci maddəsinə görə, saxta nikahın etibarsızlığı barədə iddia qaldırmaq hüququ ancaq ər və arvada verilmişdir. Ərin və yaxud arvadın sağlığında, bu qayda məqbul hesab oluna bilər. Ər və arvadın hər hansı birinin ölümündən sonra, digər maraqlı şəxslər tərəfindən belə iddiaların qaldırılması hallarına təcrübədə təsadüf olunur. Məsələn, mirasa sahib olmaq məqsədi ilə bağlanılmış saxta nikahın etibarsız hesab edilməsi barədə vərəsələr tərəfindən qaldırılan iddialar buna misal ola bilər. Onların iddia hüquqlarının olmaması, saxta nikahın bağlanması nəticəsində pozulmuş hüquqlarının və mənafelərinin müdafiəsinə imkan vermir. Buna görə də həmin maddənin təkmilləşdirilməsi məqsədəmüvafiq hesab edilmiş və həmin normaya «saxta nikah bağlandığı halda, saxta olmasını bilməyən ər (arvad) və digər maraqlı şəxslər» söz birləşməsinin əlavə edilməsi təklif edilmişdir.

Ailə Məcəlləsinin 29.1 maddəsində «ailə münasibətlərində» sözündən sonra «ailə idarəçiliyində» söz birləşməsinin əlavə edilməsi təklif edilmişdir.

Məlumdur ki, Ailə Məcəlləsinin 30.4-cü maddəsində, nikah pozulduqda, ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququ, ərin və ya arvadın subyektiv hüquqları sırasındadır. Həmin maddədən belə görünür ki, nikah pozulduqda, ər və arvad nikah bağladıqları zaman götürdükləri ümumi soyadın saxlanılmasına etiraz edə bilməzlər. Soyada hüququn şəxsi xarakter daşıması baxımından hesab edilir ki, buna ancaq soyadın ilkin daşıyıcısı olan ər və arvadın razılığı əsasında yol verilə bilər. Buna görə də Ailə Məcəlləsinin 30.4 maddəsinə «nikah pozulduqda ər (arvad) ümumi soyadlarını saxlamaq və ya nikahdan əvvəlki soyadını bərpa etmək hüququna yalnız onların öz razılığı ilə yol verilə bilər» məzmunlu dəyişiklikliyin aparılması təklif edilmişdir.

Birgə nikah dövründə əldə edilən mülkiyyətin hüquqi rejimi sahəsində müəyyən boşluqlar vardır. Ailə Məcəlləsinin 32-ci maddəsinə görə ər-arvadın nikah müddətində əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Özəlləşdirmənin ayrı-ayrı növlərinə əsasən (Böyük Vətən Müharibəsi iştirakçılarına, müəllimlərə, az təminatlı ailələrə mənzillərin əvəzsiz verilməsi, əvəzli özəlləşdirmə, umümi qaydada özəlləşdirmə) əldə edilmiş mənzillərin ər-arvadın ümumi birgə mülkiyyəti olması məhkəmə təcrübəsində mübahisələrə səbəb olur. Buna görə də həmin normada Böyük Vətən Müharibəsi iştirakçılarına, müəllimlərə, az təminatlı ailələrə mənzillərin əvəzsiz verilməsi, əvəzli özəlləşdirmə, ümumi qaydada özəlləşdirmə kimi halların istisnasız olaraq nəzərə alınaraq, onların hər birinə fərdi

məxsus olması amilinin nəzərə alınması zəruridir. Eləcə də Ailə Məcəlləsinin 36.9-cu maddəsinə əsasən nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında iddialara 3 illik iddia müddəti tətbiq edilir. Mülkiyyət mülki hüququ anlayış olduğuna görə hesab edilir ki, bu müddəa Mülki Məcəllənin 384-cü maddəsinə uyğun deyildir və normalar arasında ziddiyyət vardır[1]. Həmin maddəyə görə mülkiyyət hüququna iddia müddəti tətbiq edilmir. Buna görə də nikah pozulduqda ər-arvadın ümumi əmlakının bölünməsi haqqında iddianın müddətinə 384-cü maddənin tətbiq edilməsi və Ailə Məcəlləsinin 36.9-cu maddəsinin çıxarılması təklif edilmişdir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 64.0.7-ci maddəsinə görə ərin və yaxud arvadın bir-birinin sağlamlığına və ya həyatına qarşı qəsdən cinayət etməsi halları valideynlik hüququndan məhrum etmə üçün əsas sayılır. Hesab edirik ki, bu zaman qanunverici ədalət prinsipinə riayət etməmişdir. Belə ki, göstərilən əsaslar valideynlik hüququndan məhrum etmənin mahiyyəti ilə bilavasitə bağlı olmadığından Ailə Məcəlləsinin 64-cü maddənin «64.0.7» bəndinin çıxarılması təklif edilmişdir.

Müasir ailə münasibətlərində ən mühüm və ən çətin məsələlərdən biri aliment öhdəliklərinin real təmin edilməsi ilə bağlıdır. Bu aktual problemin birdəfəlik həlli üçün dövlət səviyyəsində «Aliment Fondu»nun yaradılması məqsədəuyğun hesab edilmişdir. Buna görə də Ailə Məcəlləsinə «Aliment Fondu» adlı «113a» maddəsinin əlavə edilməsi təklif edilmişdir:

«Maddə 113a. Aliment Fondu

113a.1. Ailə münasibətlərində aliment öhdəliklərinin vaxtında və zəruri məbləğdə ödənilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin nəzdində «Aliment Fondu» yaradılır.

113a.2. «Aliment Fondu» dövlət büdcəsi, ayrı-ayrı tutulmalar, ianələr, xeyriyyə tədbirləri, reqres iddialardan əldə edilən məbləğlər və digər qanuni mənbələr hesabına formalaşdırılır».

Azərbaycan Respublikası Konstitusiyasının 31, 32 və 33-cü maddələri hər kəsin təhlükəsiz yaşamaq, şəxsi toxunulmazlıq və mənzil toxunulmazlığı hüququnu tanımışdır. Ailə Məcəlləsinin 1.3-cü maddəsi, Mülki Məcəllənin 1, 2.3, 6.1.6 və 23.2 maddələri şəxsi və ailə həyatına özbaşına müdaxiləni, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyi prinsipini müəyyən etmişdir. Buna baxmayaraq məhkəmə və istintaq təcrübəsi birmənalı şəkildə təsdiq edir ki, ailə münasibətlərinin pozulması və boşanmalar, çox vaxt ailənin işinə, şəxsi və ailə həyatına özbaşına qarışma və müdaxilə, şəxsi və ailə həyatının sirrlərinin və şəxsi toxunulmazlıq hüququnun pozulması nəticəsində baş verir. Cinayət Məcəllənin 106-cı maddəsində şəxsi həyatın toxunulmazlığını pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin maddənin dispozisiyasından görünür ki, yalnız şəxsi və ailə həyatının sirri olan məlumatların, sənədlərin, materialların toplanılması və yayılması belə əməllər sırasındadır. Bu normada şəxsi həyatın toxunulmazlığı dedikdə, qanunverici, şəxsin həyatına aid sirr hesab edilən məlumatların toplanılmasını və qanunsuz yayılmasını nəzərdə tutmuşdur. Sirr olmayan, lakin ailə üçün mühüm

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsi. B., Hüquq yayın evi, 2016.

əhəmiyyət kəsb edən məlumatların, habelə ailənin fəaliyyətinə müdaxilə və ailənin işinə qanunsuz qarışmağa görə məsuliyyət nəzərdə tutulmuşdır. Mülki Məcəllənin 6.1.6 maddəsi ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyi, ailədaxili məsələlərə, şəxsi və ailə həyatına kimsənin özbaşına qarışması, MM-nin 23-1 maddəsi isə şəxsi və ailə həyatının sirrinin və ya şəxsi toxunulmazlıq hüququnun pozulmasını qadağan etmişdir. Mülki Məcəllənin 1.2 maddəsi şəxsi və ailə həyatının, şəxsi toxunulmazlıqdan müdafiə hüququnu tanımış və onların qanunla qorunduğunu təsbit etmişdir. Lakin təcrübədə Konstitusiyanın, Ailə Məcəlləsinin və Mülki Məcəllənin müəyyən etdiyi qaydalar cinayət hüquq vasitələrlə müdafiə olunmadığından ailə işlərinə qanunsuz qarışma və ailədaxili münasibətlərə müdaxilə, ailə münasibətlərinə mühüm zərər vurmaqla hazırda da davam etməkdədir. Bütün bunları nəzərə alaraq və ailənin möhkəmləndirilməsini təmin etmək üçün AR-nın Cinayət Məcəlləsinə aşağıdakı məzmunda 156-1 maddəsinin əlavə edilməsi təklif edilmişdir:

«Maddə 156-1.1. Şəxsi və ailə həyatının toxunulmazlığını pozma

Şəxsi və ailə həyatına özbaşına müdaxilə, ailədaxili məsələlərə qanunsuz qarışma, ailənin və şəxsin həyatının toxunulmazlığını pozmağa yönəlmiş əməllər –

beş yüz manatdan səkkiz yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək ictimai işlər və ya bir ilədək müddətdə islah işləri ilə cəzalandırılır.

Maddə 156-1.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə, təkrar törədildikdə və ağır nəticələrə səbəb olduqda –

üç ilədək müddətdə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğulluq hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

Ailə və ailə münasibətləri ilə bağlı bir sıra əməllər cinayət məsuliyyəti yaratdığı halda, onların heç də hamısı «Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər»ə görə məsuliyyət müəyyən edən 12-ci fəsildə deyil, müxtəlif fəsillərdə - «Sülh və insanlıq əleyhinə olan cinayətlər» və «Şəxsiyyət əleyhinə olan cinayətlər»ə görə məsuliyyət müəyyən edən bölmələrdə nəzərdə tutulmuşdur. Buna görə də gələcəkdə həmin normaların ayrıca bir «Ailə münasibətləri əleyhinə olan cinayətlər» fəslində yerləşdirilməsi onun tətbiqini asanlaşdırmış olardı[1]. Buna görə də AR Cinayət Məcəlləsinin 12-ci fəslinin adı dəyişdirilərək «Ailə münasibətləri əleyhinə olan cinayətlər» fəslinin yaradılması, yuxarıda qeyd edilən maddələrin bu fəsilə daxil edilməsi təklif olunmuşdur.

Dissertasiya işində «Azərbaycan Respublikasında nikahın konstitusiya və beynəlxalq hüquqi statusunun müqayisəli təhlili» adlı üçüncü fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil «Nikah – müasir Azərbaycan ailəsinin beynəlxalq və milli hüququ əsası kimi» adlandırılmışdır. Bu fəsildə nikahın dövlət – ailə münasibətlərinin təkamülü nəticəsində yarandığı əsaslandırılmış və onun müasir baxımdan ətraflı tədqiqi, konstitusiyanın nikah hüququna həsr olunmuş 34-cü

[1] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. B., 2016, I və II cild.3

maddəsinin yeni redaksiyada verilməsi zərurətini şərtləndirmişdir. Təklif edilən normada ilk dəfə olaraq konstituisya səviyyəsində nikahın definisiyası verilmişdir. Orada göstərilmişdir ki, hər kəsin qanunla nəzərdə tutulmuş nikah yaşına çatdıqda ailə qurmaq hüququ vardır. Ailə, nikah əsasında rəsmiləşdirilir. Qanunvericiliklə müyyən edilmiş yaş həddinə çatan, anlaqlı, sağlam, başqa nikahda olmayan, qanunvericiliklə müəyyən edilmiş qan qohumları istisna edilmək şərti ilə, qarşılıqlı məhəbbətə və hörmətə əsaslanan, maddi, mənəvi və fizioloji tələbatların ödənilməsinə, şəxsi əmlak hüquqlarının və vəzifələrin əmələ gəlməsinə, birgə yaşamaq və ailəni idarə etmək, övlada sahib olmaq, onları böyütmək, tərbiyə etmək və ailə qurmaq məqsədilə, qadının və kişinin azad iradəsini ifadə edən və könüllü razılığına əsaslanan, müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən birlik, ittifaq nikah hesab olunur.

Yeni təklif edilən normada, kişinin və qadının nikah bağlayarkən, nikah vəziyyətində olarkən və nikahı pozılarkən, ərlə-arvadın hüquqlarının və vəzifələrinin bərabərliyinə təminat verilmiş, nikah pozularkən uşaqlar üçün zəruri müdafiə tədbirlərinin görülməsi vacib hesab edilmişdir. Beynəlxalq və milli hüquqla müəyyən edilmiş uşaq hüquqlarının və azadlıqlarının qorunmasına dövlət tərəfindən təminat verilir. Ailə münasibətlərində və ailə idarəçiliyində ərin və arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də vəzifəsidir. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

Azərbaycan ailə münasibətlərində ən ağrılı məsələlərdən biri uşaqlı ailələrdə nikah əqdinin ləğvi ilə bağlıdır. Aparılan təhlillər birmənalı şəkildə təsdiq edir ki, kişinin boşanma barədə iddialarının icraata qəbul edilməsində müəyyən məhdudiyyətlərin tətbiq edilməsi zəruridir. Çünki kişinin təşəbbüsü ilə boşanmanın reallaşması faktiki olaraq ailənin başsız qalması ilə nəticələnir ki, bu da ağır nəticələr verə bilir. Bu baxımdan ailənin başçısı hesab olunan kişinin boşanma barədə iddia qaldırmaq hüququnun müəyyən şərtlər daxilində məhdudlaşdırılması qanunvericilik yolu ilə həll edilməlidir. Uşaqlı ailələrin mənzil problemi tam həll edilmədən, uşaq məktəb yaşına – 7 yaşa çatmadan kişinin boşanma barədə iddia qaldırmaq hüququ məhdudlaşdırılmalıdır. Bu da onunla əlaqədardır ki, uşaq 7 yaşa çatdıqda onun təhsil dövrü başlayır və müəyyən problemləri artıq həll edilmiş olur. Məktəbə gedişin 7 yaşdan başlanması təsadüfi deyildir. Psixoloqların apardıqları tədqiqatlar təsdiq edir ki, insanın düşüncə mərkəzinin, yaddaşının, xatirələrinin, rəftar və münasibətlərinin, ətrafda baş verənlərin ibtidai formada dərkolma mexanizmlərinin gələcək insanın davranış elementləri kimi əsası, bünövrəsi məhz 7 yaşa qədər olan dövrdə formalaşır və möhkəmlənmə prosesi davam edir. İnsan orqanizminin və təfəkkürünün inkişafı əsasən 25 yaşa qədər davam etsə də, lakin qeyd edildiyi kimi dərketmə prosesinin ilk bünövrəsi 7 yaşa qədər qoyulur. Bu dövrdə qəddarlıq, zülm, əzab, qeyri-insani davranışa məruz qalmış uşaqlar sonralar qəddar-zorakı cinayətləri asanlıqla törədirlər. Bütün bunlara görə də 7 yaşa qədər ailə başçısını – atanı itirmiş, ata qayğısından məhrum edilmiş uşaqların gələcək taleyi hər bir insanı dərindən düşündürməlidir.

Uşağının 7 yaşı tamam olana qədər atanın boşanma barədə iddia qaldırmaq hüququnun qanunvericilik yolu ilə məhdudlaşdırılması üçün Ailə Məcəlləsinin 15-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif edilmişdir:

«Maddə 15. Ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması.

Uşaqlı ailənin mənzil probelmi həll edilmədən, arvadın hamiləlik dövründə və uşağın 7 yaşı tamam olana qədər arvadın razılığı olmadan ər, nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz».

Bu gün müasir ailə və ailə münasibətlərində baş verən proseslər vətəndaş nikahına əsaslanan ailələrin yaradılması zamanı ciddi problemləri olduğunu təsdiq edir. Belə ailələrdə doğulmuş uşaqların taleyi, onların statusu və mövcud faktların məhkəmə yolu ilə tanınmasında boşluqlar olduğu nəzərə alınaraq, Ailə Məcəlləsinin 2.3 maddəsinə «ittifaqıdır» sözündən sonra aşağıdakı məzmunda yeni bəndin əlavə edilməsi təklif edilir: «Kişi və qadının razılıqları əsasında ailə qurmaq, övlad sahibi olmaq, birgə yaşamaq, ümumi təsərrüfatı birgə idarə etmək məqsədilə birgəyaşayış və nikah faktı məhkəmə yolu ilə təsdiq olunduğu hallarda, belə əqd müvafiq icra hakimiyyəti orqanlarında qeydiyyata alınan hüquqi ittifaqa bərabər tutulur, nikah hesab edilir, tərəflər üçün hüquqlar, vəzifələr və öhdəliklər yaradır».

Azərbaycan ailə modelində kişinin ailənin başçısı olması müddəası hamı tərəfindən yekdilliklə qəbul edilir. Buna baxmayaraq, hamı tərəfindən etiraf edilən bu reallıq qanunvericilikdə təsbit edilməmiş, bu da ailə sahibkarlığının və ailə subyektliliyinin bir problem kimi aktuallığı şəraitində yolverilməz hesab edilməlidir. Buna görə də Ailə Məcəlləsinə aşağıdakı məzmunda yeni 6-cı maddənin əlavə edilməsi təklif edilmişdir:

«Maddə 6 c. Ailə başçısı – AR-nın Ailə Məcəlləsinə müvafiq olaraq, kişi və qadın tərəfindən ailə qurma məqsədi ilə yaradılmış və müvafiq orqanlarda qeydə alınmış insan birliyi olaraq ailənin hüquqlarının, azadlıqlarının, vəzifələrinin və öhdəliklərinin həyata keçirilməsini həyat yoldaşı ilə birlikdə təşkil və təmin edən, ailə idarəçiliyinə rəhbərlik edən kişi, ailənin başçısı hesab olunur.

Tərəflərin qarşılıqlı razılığı əsasında, ailənin dağılması və ya ərin vəfatı nəticəsində olmayan ailə başçısı funksiyasını qadın, həyat yoldaşı həyata keçirir və o ailə başçısı statusunu alır».

Qloballaşma və inteqrasiya prosesləri şəraitində Ailə Məcəlləsinin 9.1, 9.5, 10.2, 11, 13 və bir sıra digər maddələrində göstərilən «nikaha daxil olan şəxslər» sözləri, Məcəllənin digər maddələrində göstərildiyi kimi «kişi və qadın» sözləri ilə əvəz edilməsi zərurəti yaranmışdır. Buna görə də, təklif edilmişdir ki, Ailə Məcəlləsinin 9.5 maddəsində «nikaha daxil olmaq istəyən şəxslər», 10.2 maddəsində «nikaha daxil olmaq istəyən», 11.1 maddəsində «nikaha daxil olan şəxslərin», 13 maddəsinin adında və mətnində istifadə edilən «nikaha daxil olmaq istəyən şəxslərin» söz birləşməsi «nikaha daxil olan şəxslər – kişi və qadın» söz birləşməsi ilə əvəz edilməklə problemin həlli təmin edilməlidir.

Yaxın qohumlar arasında evliliyin və erkən nikahın ciddi mənfi nəticələr doğurması və dünyanın bir çox ölkələrində qadağan edilməsinin müsbət nəticələrə

gətirib çıxarması nəzərə alınaraq, Ailə Məcəlləsinin nikahın bağlanmasına mane olan halları tənzim edən 12-ci maddəsinə aşağıdakı məzmunlu bənd əlavə edilməsi təklif olunmuşdur: «12.0.1. qan qohumları, yaxın qohumlar (valideynlər və uşaqlar, baba, nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaşlar və bacılar)».

Azərbaycan ailəsinin inkişafı ailə sahibkarlığının, ailə-fermer təsərrüfatlarının və digər təsərrüfat subyektlərinin gündən-günə genişlənməsi kontekstində yaranmış çoxsaylı problemləri həll etmək üçün Azərbaycan Respublikası Mülki Məcəlləsinin «Mülki hüquq münasibətlərinin subyektləri» adlanan 5.1 maddəsində «ola bilər» sözündən sonra «ailə mülki hüquq münasibətlərinin subyektidir» söz birləşməsinin əlavə edilməsi təklif edilmişdir.

Mülki prosessual fəaliyyətdə ailə və ailə münasibətləri ilə bağlı bir sıra boşluqların aradan qaldırılması üçün Mülki-Prosessual Məcəllənin 307.2.3-cü maddəsində, doğum və yaxud ölüm faktının məhkəmədə müəyyən edilməsi qaydası nəzərdə tutulmalıdır. Eləcə də Mülki-Prosessual Məcəllənin 307.2.4-cü maddəsində göstərilən əsaslarla nikah faktının məhkəmə qaydasında tanınması problemi də həll edilməlidir.

Ailə Məcəlləsinin 1.5-ci maddəsində göstərilir ki, dini kəbin kəsmə və ya dini nikah heç bir hüquqi əhəmiyyətə malik deyildir. Bununla belə dinə və dini kəbin kəsməyə münasibət vicdan azadlığı ilə bağlı olduğuna görə, hesab edirik ki, Ailə Məcəlləsinin 1-ci maddəsinə aşağıdakı məzmunda yeni 1.6 maddəsinin əlavə edilməsi məqsədəmüvafiqdir:

«1.6. Müvafiq icra hakimiyyəti orqanlarında nikah əqdi qeydiyyata alındıqdan sonra, tərəflər – kişi və ya qadın öz istəklərinə müvafiq olaraq, dini kəbin kəsmədən istifadə etməyə haqlıdır».

İnsan hüquqlarının təmin olunması adı altında, məhkəmələr bəzən nikah əqdinin ləğvi barədə tələm-tələsik qərarlar çıxarırlar. Bu isə yolverilməz hesab olunmalıdır. Buna görə də Ailə Məcəlləsinin 19.1 maddəsində «pozulur» sözündən sonra, aşağıdakı məzmunda cümlənin əlavə edilməsi təklif edilir:

«Məhkəmə, nikahın pozulması barədə ər və ya arvadın ərizə verməsinin səbəblərini müəyyən etməyə, ər-arvadı barışdırmaq üçün mümkün olan bütün tədbirləri görməyə borcludur».

Üçüncü fəslin ikinci yarımfəsli «Qloballaşma və transformasiya şəraitində müasir Azərbaycan ailəsinin strukturu: konstitusiya hüquqi təhlil» problemlərinə həsr edilmişdir. Qloballaşma və transformasiya proseslərinin fəlsəfi mahiyyətinə aydınlıq gətirilmiş və onun Azərbaycanda təcəssümünə dair akademik Ramiz Mehdiyevin və professor Əli Həsənovun mövqeləri yüksək qiymətləndirilmişdir. Planetar təzahür olaraq qloballaşma və transformasiya proseslərinin cəmiyyətə, xüsusilə ailə və ailə münasibətlərinə göstərdiyi təsirlərin sosial əsasları şərh edilərək, qeyd olunmuşdur ki, ailənin ənənəvi strukturu, onun bütövlüyü və həssaslığı müəyyən çətinliklərlə üzləşmişdir. Cəmiyyətdə insan və insan birliyi olaraq ailənin bütövlüyü və onun quruluşu son illər ənənəvi ölçülərini dəyişmişdir. Ailənin quruluşu, nizamı, bütövlüyü və onun alt sistemlərini təşkil edən subyektlərin statusunda baş verən dəyişikliklər ailənin funksiyalarına, vəzifələrinə öz təsirini göstərmişdir. Azərbaycan

Respublikasının Konstitusiyasında və Ailə Məcəlləsində dəfələrlə xatırladılmış ailə, ata, ana, uşaq, valideyn, atalıq, analıq, körpəlik istilahlarının mahiyyəti və definisiyası bu günə kimi müəyyən edilməmişdir. Ailə münasibətlərinin subyekti olaraq qadının, kişinin, uşağın statusunda əhəmiyyətli rol oynayan, onların bioloji və psixoloji əsasları aydınlaşdırılmamış və bu subyektlər onların hüquq bərabərliliyinin və fərqliliyinin əsaslarına yer ayrılmamışdır. Halbuki bu məsələnin həlli şərh edilən subyektlərin hüquqları və azadlıqları ilə bağlı tətbiq və təfsir zamanı çox önəmlidir. Buna görə də biologiya, fiziologiya, psixologiya və digər elmlərin müddəalarından istifadə edilərək, qadının, kişinin, valideynin, uşağın, analığın, atalığın mükəmməl definiyası verilmiş, bu da onların hər birinin konstitusiya hüquqi mahiyyətinin açılmasını təmin etmişdir. Bioloji fərd olaraq insanın cəmiyyətlə birlikdə ictimai statusu, onun şəxsiyyət kimi hüquqi vəziyyətini müəyyən edir. Əgər nəzərə alsaq ki, cəmiyyətdə və dövlətin həyatında bütün məsələlərin ağırlığı yaradıcı insanın, şəxsiyyətin üzərinə düşür, onda ailə problemlərini, ailnin statusunu, fərdin və şəxsiyyətin statusunu, onların hər birinin bioloji və psixoloji mahiyyətini tədqiq etmədən mümkün olmazdı. Buna görə də tədqiqatın kompleksliliyini təmin etmək üçün bioloji insan varlığının, qadının, kişinin, uşağın hər birinin ətraflı tədqiqi təmin edilmiş və bu məsələlərin aydınlaşdırılması dəyərli nəticələr çıxartmağa imkan yaratmışdır. İnsanın qadın və kişi kimi iki cinsə ayrılmasının bioloji, fizioloji əsasları, ailənin ilk öncə və daha çox fizioloji tələbatların ödənilməsi məqsədilə yaradılması, gender proseslərinin mahiyyəti və məzmunu, ailənin məqsəd və vəzifələrinin müəyyən edilməsi, funksiyalarının hüquqi tənzimlənməsi məsələləri ətraflı tədqiq edilmişdir. Haqlı olaraq qeyd edilmişdir ki, ailənin insan birliyi olaraq yaranması, tərəflərin könüllü istəyi əsasında formalaşmaqla, ailə cəmiyyətdə insan nəslinin davamlı inkişafını təmin edən ən mühüm təsisatdır. Ailə cəmiyyətin və dövlətin bütün problemlərinin həllində, inkişafında yaratdığı və yetişdirdiyi insanlar vasitəsilə iştirak edir. Cəmiyyətdə və dövlət həyatında bütün məsələlərin uğurlu həllində müasir intellektual insanın, bir varlıq olaraq – kişinin və qadının yaratdığı ittifaq – ailə müstəsna əhəmiyyətə malikdir. Analıq və atalıq bioloji insan cinsi hesab olunan, qadının və kişinin özünəməxsus səciyyəvi xüsusiyyətlərini, mahiyyətini, məzmununu, duyğularını, hislərini, psixologiyasını bir məcmu kimi ehtiva edir. Müstəqillik illərində Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması, Azərbaycan qadınlarının rolunun artırılması, dövlət qadın siyasətinin təkmilləşdirilməsi, Ailə Məcəlləsinin qəbul edilməsi, qadın əməyinin mühafizəsi və müdafiəsi, yoxsulluğun azaldılması, iqtisadi inkişafın gücləndirilməsi, kişi və qadın bərabərliyinin təminatlarının genişləndirilməsi, uşaq hüquqlarının təsbiti və tənzimlənməsi, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara sosial qayğının artırılması, əlil uşaqların hüquqlarının qorunması, onlar üçün zəruri şəraitin yaradılması, təhsili, sağlamlığı, yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası, körpələrin və erkən yaşlı uşaqların qidalanması, sosial sığortanın və müavinətlərin genişləndirilməsi, məktəbəqədər təhsilin müasirləşməsi, nikahdankənar doğulan uşaqların hüquqi statusunun beynəlxalq standartlara uyğunlaşdırılması və onlarla digər sahələrdə

həyata keçirilmiş kompleks tədbirlər müasir ailənin və ailə üzvlərinin hüquqlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Çoxsaylı Dövlət Proqramları beynəlxalq təşkilatlarla birlikdə sistemli, ardıcıl və mükəmməl qaydada həyata keçirilmişdir. Bütün bu tədbirlər, Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası kontekstində uğurla davam etdirilməkdədir.

Dissertasiya işinin dördüncü fəsli «Azərbaycan Respublikasında ailə üzvlərinin konstitusiya hüquqi statusu» problemlərinin elmi-nəzəri tədqiqinə həsr olunmuşdur. Bu mürəkkəb və aktual problemin kompleks elmi-nəzəri həllini təmin etmək üçün iki yarımfəsil ayrılmışdır. Birinci yarımfəsil «Azərbaycan ailəsinin üzvü kimi qadının – ananın konstitusiya və beynəlxalq hüquqi statusunun müqayisəli təhlili»nin tədqiqinə həsr olunmuşdur. İlk öncə qadının və ananın hüquq və azadlıqlarına həsr olunmuş BƏT-in «Analığın mühafizəsi haqqında», BMT-nin «Qadınların siyasi hüquqları haqqında», «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması haqqında», «İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında», «İnsan alveri ilə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarı ilə mübarizə haqqında», «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı mübarizə haqqında», «Ərdə olan qadının vətəndaşlığı haqqında», «Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında» beynəlxalq sənədlərin mahiyyətinə və əhəmiyyətinə müəyyən yer ayrılmışdır. Xüsusilə, BƏT-in əmək və sosial təminat məsələlərinə dair qəbul etdiyi 150-dən çox Konvensiyası və tövsiyəsi xatırladılaraq, onların əksəriyyətinin ölkəmizdə ratifikasiya olunduğu vurğulanmışdır. Qeyd olunmuşdur ki, bu proses müstəqillik illərində milli qanunvericiliyin tərkib hissəsi kimi davam etdirilərək, qadın hüquqları və azadlıqları ilə bağlı milli normativ-hüquqi aktlar hazırlanmışdır. Lakin indiyə qədər nə beynəlxalq və nə də milli səviyyədə qadın hüquqlarını, azadlıqlarını və vəzifələrini səciyyələndirən müstəqil, ayrıca normativ-hüquqi akt qəbul edilməmişdir. Buna görə də tədqiqatçı qanunvericilik tariximizdə ilk dəfə olaraq «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsini hazırlamış və Milli Məclisə təqdim etmişdir. Milli Məclisdə layihə nəzərdən keçirilmiş, əsasən bəyənilmiş və qanun yaradıcılığı prosesində istifadə ediləcəyi barədə cavab alınmışdır. Bu layihənin Milli Məclisdə müzakirə edilməsi və qəbul olunması qadının, ananın cəmiyyətdə, ailə münasibətlərində və dövlət həyatında rolunun hüquqi əsaslarının daha da genişləndirilməsini təmin edəcəkdir. Bütün beynəlxalq standartlar nəzərə alınaraq, «Azərbaycan Respublikasının qadın hüquqları və azadlıqları haqqında qanun» layihəsi 64 maddədən ibarət olmaqla, onun məqsədləri, vəzifələri, funksiyaları, öhdəlikləri tam əhatə olunmuşdur.

Tədqiqat zamanı Azərbaycan ailəsinin üzvü kimi qadının hüquqları və analığın definisiyası verilmiş, onun konstitusiya hüquqi statusunun tədqiqi təmin edilmişdir. Haqlı olaraq qeyd edilmişdir ki, cəmiyyətin, ailənin və dövlətin aparıcı bir qüvvəsi olaraq ana və analıq, kompleks bir fenomen təşkil edir. O yaradıcı varlıq olaraq dünyaya uşaq gətirir, onu tərbyə edir, cəmiyyətə faydalı bir şəxsiyyət kimi yetişdirir. Ana və analıq hüququnun mahiyyəti, bioloji, fizioli̇j və psixoloji əsasları bu

cinsin kompleks mahiyyətini açmağa imkan vermişdir. Bütün cəmiyyətin, dövlətin və şəxsiyyətin xoşbəxtliyinin əsasında ananın, qadının olduğu kifayət qədər əsaslandırılmış, onun hüquq və azadlıqlarının genişləndirilməsi, bəşəriyyətin ən böyük arzusu olaraq ikinci dünya müharibəsindən sonra əhəmiyyətli dərəcədə genişləndiyi qeyd olunmuşdur. Qadın və ananın Azərbaycan cəmiyyətindəki funksiyaları və vəzifələri, yeri və rolu ənənəvi olaraq həmişə yüksək olmuş və bu gün də bu istiqamətdə tədbirlər davam etdirilməkdədir.

İşin bu yarımfəslində eyni zamanda bir sıra ölkələrin təcrübəinə istinad edilərək, Azərbaycan Respublikasında ixtisaslaşmış ailə məhkəmələrinin yaradılması barədə təklif irəli sürülmüşdür. Tədqiqatçı əsaslandırmışdır ki, yetkinlik yaşına çatmayanların cinayət və mülki işlərinə, ailə və ailə münasibətləri sahəsində cinayət, mülki, inzibati, mənzil və digər qanunvericiliyin pozulması ilə bağlı məsələlər, həm də ailə sirlərinin qorunması məqsədilə yaradılmış müstəqil ailə məhkəmələrində baxılması heç şübhəsiz effektiv və səmərəli nəticələr verəcəkdir. Buna görə də müəllif hesab edir ki, Azərbaycan Respublikasında ailə məhkəmələrinin yaradılması məsələsinin həll edilməsi əhəmiyyətli olacaqdır.

Dissertasiya işinin dördüncü fəslinin ikinci yarımfəsli «Azərbaycan ailəsinin üzvü kimi uşağın konstitusiya və beynəlxalq hüquqi statusunun müqayisəli təhlili» problemlərinin tədqiqinə həsr olunmuşdur. Qeyd edilmişdir ki, uşaq zərif, körpə, gücsüz və hələ bir şəxsiyyət kimi tam yetişmədiyindən, ona qayğı və köməklik göstərilməsi humanist və insanpərvərlik baxımından çox önəmlidir. Bütün mütərəqqi və demokratik cəmiyyətlərdə uşaq cəmiyyətin və insanlığın gələcəyi kimi böyük hörmətə və diqqətə sahib olur. Təsadüfi deyil ki, Azərbaycan Konstitusiyasının 17-ci maddəsində haqlı olaraq göstərilmişdir ki, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. 15 yaşına çatmamış uşaqların sağlamlığı, rifahı və gələcəyi nəzərə alınaraq, onların işə götürülməsi yolverilməz hesab edilir. Uşağın sağlam, elmli, qabiliyyətli bir şəxsiyyət kimi tərbiyəsi və yetişdirilməsi cəmiyyətin, ailənin, dövlətin və valideynlərin müqəddəs borcu hesab edilir. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Mürəkkəb bir təsisat olaraq ailənin üzvləri sırasında uşaqların öz yeri, öz rolu vardır. Konstitusiyadan başqa, Ailə Məcəlləsi uşaq hüquqlarına və azadlıqlarına geniş yer ayırmışdır. Məhz II Dünya müharibəsindən sonra böyük əzablara mübtəla olmuş uşaqların qorunması və onların hüquqlarının genişləndirilməsi BMT-nin himayəsi altında uğurlu bir inkişaf yolu keçmişdir. BMT-nin 20 noyabr 1959-cu il «Uşaq hüquqları Bəyannaməsi»ndə, 20 noyabr 1989-cu il «Uşaq hüquqlarına dair Konvensiya»sında, AR-nın 19 may 1998-ci il «Uşaq hüquqları haqqında» Qanununda, 24 may 2005-ci il tarixli «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanununda və çoxsaylı digər normativ-hüquqi aktlarda uşaq hüquqlarının və azadlıqlarının səciyyəvi cəhətləri öz əksini tapmışdır. Uşaq hüquqlarının müdafiəsi və mühafizəsini təmin etmək üçün çoxsaylı təşkilatlar, vətəndaş cəmiyyəti təsisatları yaradılmışdır. Hər il BMT səviyyəsində, eləcə də Azərbaycan Respublikasında uşaq cinayətkarlığının vəziyyətinə dair məlumatlar dərc edilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu sahədə əhəmiyyətli işlər görmüşdür. Uşaq

hüquqlarına dair beynəlxalq təşkilatların Bakı nümayəndəliyi ilə birgə keçirilən tədbirlər, sosioloji sorğular, buraxılan nöqsanlar təxirəsalınmadan aradan qaldırılır, uşaqların sağlam, ağıllı, təhsilli və elmli bir şəxsiyyət kimi yetişdirilməsinə önəm verilir.

«Uşaq hüquqları haqqında» AR-nın 19 may 1998-ci il tarixli Qanundan fərqli olaraq «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» AR-nın 24 may 2005-ci il tarixli Qanunu ölkədə profilaktika sahəsində ilk normativ-hüquqi aktlardan biri hesab oluna bilər. Hər iki Qanunun müxtəlif normalarından aydın olur ki, «yetkinlik yaşına çatmayan» dedikdə, 18 yaşınadək olan şəxslər başa düşülür. Fikrimizcə, bu anlayış, daha başa düşülən və konkret formada ifadə edilmişdir. Bununla belə hesab edirik ki, qanunvericilikdə «uşaq» terminindən istifadə edilməsi daha uğurlu, daha lokanik və daha aydın başa düşülə bilər. BMT-nin 12 noyabr 1989-cu il tarixli «Uşaq hüquqları haqqında» Konvensiyasının 1-ci, Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli «Uşaq hüquqları haqqında» Qanununun 1-ci maddələrində, eləcə də Azərbaycan Respublikasının 24 may 2005-ci il tarixli «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanununun 1-ci maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Uşaq – yetkinlik yaşı, yəni 18 yaşı tamam olmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən insan cinsi – qız və ya oğlan, uşaq hesab edilir».

Tədqiqat zamanı müstəqillik illərində uşağın statusu, eləcə də onunla bağlı müxtəlif tənzimlənmə məsələlərinə dair çoxsaylı aktlar qəbul edilmişdir. «Normativ-hüquqi aktlar haqqında» AR-nın Konstitusiya Qanununa müvafiq olaraq, normativ-hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ-hüquqi aktlarda birləşdirilməsi – Məcəlləşdirilməsi uşaqların müdafiəsi və mühafizəsi üçün mühüm əhəmiyyətə malik ola bilər. Bütün bunlara görə də uşaqlarla bağlı bütün normativ-hüquqi aktların məcmu şəkildə birləşdirilməsi və məcəlləşdirilməsi yolu ilə «Azərbaycan Respublikasının Uşaq Məcəlləsi»nin hazırlanması və qəbul olunması vacibdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq strategiyasının layihəsinin hazırlanması istiqamətində gördüyü tədbirlərin inamla davam etdirilməsi təqdirəlayiqdir. Uşaqlar arasında cinayətkarlığın profilaktikasına dair qanunun tətbiqi, icra hakimiyyəti və bələdiyyələr nəzdində müvafiq komissiyaların, polis orqanlarında müvafiq müfəttişliyin fəaliyyət göstərməsi səmərəli nəticələr verməkdədir.

Ailə münasibətlərində uşaq hüquqlarının və azadlıqlarının mükəmməl təsbiti təmin edilsə də, bəzi normaların təkmilləşdirilməsinə zərurət vardır. Ailə Məcəlləsinin 52-ci maddəsinə görə, məhkəmə, qəyyumluq və himayə orqanı, yalnız 10 yaşına çatmış uşağın razılığı ilə müvafiq qərar qəbul edə bilər. Təcrübədə valideynlərdən hər hansı biri tərəfindən uşağın «ələ alınması» və yaxud şirnikləndirilməsi halları mümkündür. Bu baxımdan həmin maddədə müvafiq dəyişikliklər edilməklə, müəyyən edilə bilər ki, məhkəmə, qəyyumluq və ya himayə orqanı uşağın fikrini nəzərə almaqda haqlı hesab edilsin. Buna görə də Ailə

Məcəlləsinin 52-ci maddəsinin sonuncu cümləsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

«...Bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmə, qəyyumluq və ya himayə orqanı, yalnız 10 yaşına çatmış uşağın fikrini nəzərə almaqda haqlıdır».

Demokratik və hüquqi dövlət quruculuğu mərhələsində uşaqlara qayğının və diqqətin artırılması, onlar haqqında normativ-hüquqi aktların təkmilləşdirilməsi və təşkilati-hüquqi tədbirlərin daha da mükəmməlləşdirilməsi müstəsna əhəmiyyətə malikdir. Bu mənada hesab edirik ki, ailənin üzvü kimi uşağın konstitusiya hüquqi statusunun daha da təkmilləşdirilməsi, uşaq hüquqlarının müdafiəsi və mühafizəsi daha da gücləndirilməlidir.

Azərbaycan ailə modelində ailənin başçısının ər – kişi olması təcrübədə heç bir mübahisə yaratmır. Azərbaycan ailələrində bir qayda olaraq uşağa atanın soyadının verilməsi təəssüf ki, milli qanunvericiliyimizdə bu reallığı əks etdirmir. Buna görə də Ailə Məcəlləsinin 53.3 maddəsinin aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir:

«Uşağın soyadı, bir qayda olaraq valideynlərin razılığı əsasında atanın soyadı ilə müəyyən edilir. Valideynlərinin soyadları müxtəlif olduqda, uşağın soyadı, valideynlərin razılığı əsasında ananın soyadı ilə də müəyyən edilə bilər. Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur».

Tədqiqat işinin beşinci – sonuncu fəsli «Ailənin konstitusiya və beynəlxalq hüquqi statusunun aktual problemləri və müdafiə mexanizmləri: müqayisəli təhlili»nə həsr edilmişdir. Bu fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil «Azərbaycan Respublikasında ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin təminatları, beynəlxalq və milli müdafiə mexanizmləri: müqayisəli təhlil» problemlərinin tədqiqinə həsr olunmuşdur. Qeyd olunmuşdur ki, demokratik, hüquqi, dünyəvi respublika quran Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Dövlətin ali məqsədləri sırasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi öncül yer tutur. Beynəlxalq birliyin üzvü olan Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının prinsipi hər kəsin qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ və bu hüquqların müdafiəsinə Azərbaycan Respublikası tərəfindən inzibati və məhkəmə təminatı verilmişdir. Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqları gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə orqanlarının borcu kimi təsbit edilmişdir. Bu hüquqların və azadlıqların qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna edilməklə məhdudlaşdırılması yolverilməz hesab edilir. Bütün bu normalar ailə, qadın və uşaq hüquqlarının müdafiəsinə və mühafizəsinə dövlət təminatı ilə qorunur. Buna görə də tədqiqat zamanı hüquq və azadlıqların müdafiəsi və mühafizəsinin anlayışı və mexanizmləri öyrənilmiş, statistik məlumatlar əsasında ölkədə ailə, qadın və uşaq hüquqlarının pozulmasına dair xarakterik təzahürlər və qanunauyğunluqlar üzə çıxarılmışdır. Beynəlxalq və milli hüquq normaları kontekstində ailə hüquqlarının

müdafiəsi və mühafizəsi vəziyyəti kriminiloji tədqiqatlara cəlb edilmiş və profilaktikası göstərilmişdir. Hüquq müdafiə mexanizmləri və onun təminatlarının səmərəliliyi göstərilmiş, artıq müstəqilliyini kifayət qədər möhkəmləndirmiş, ölkədə beynəlxalq təşkilatların rolu yüksək dəyərləndirilmişdir. Bununla belə haqlı olaraq qeyd edilmişdir ki, Dağlıq Qarabağ münaqişəsinə cəlb edilmiş ölkədə qadınların və uşaqların hüquqlarının qorunması və ailələrin münaqişə nəticəsində dağılması halları ciddi narahatçılıq doğurur. Milli müdafiə mexanizmləri sırasında məhkəmə sisteminin köklü islahatları, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqi, insan hüquqları üzrə müvəkkilliyin, Konstitusiya Məhkəməsinin, ictimai nəzarət və qeyri-hökumət təsisatlarının fəaliyyətinin gücləndirilməsi müsbət qiymətləndirilmişdir. Bununla belə hesab edilmişdir ki, Azərbaycan Respublikasında ailənin, qadının və uşağın hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində müstəqil «Ailə, Qadın və Uşaq hüquqları üzrə müvəkkil»in – Ombudsmanın təsis edilməsi əhəmiyyətli ola bilər.

Ailə, qadın və uşaq hüquqlarının səmərəli və etibarlı müdafiəsində səylər birləşdirilmiş, gücləndirilmiş və müsbət təcrübələrdən yaradıcılıqla istifadə edilmişdir. Bazar münasibətlərinin inkişafı ailə sahibkarlığının, ailə-fermer təsərrüfatlarının sürətlə inkişafı, insan birliyi olaraq ailənin hüquq subyektliliyi məsələsinin tanınmasını, hüquqi şəxs elementlərinə sahib olan ailə idarəçiliyinin təkmilləşdirilməsi zəruri hesab edilmişdir. Bu mənada ailə idarəçiliyinin hüquqi əsaslarının qanunvericilik yolu ilə müəyyən edilməsi bir zərurətə çevrilmişdir. Buna görə də Ailə Məcəlləsinə «Ailə idarəçiliyi» adlı 6b maddəsinin əlavə edilməsi təklif edilmişdir. Əminliklə demək olar ki, ailə idarəçiliyinin hüquqi tənzimlənməsinin təklif edilən variantda qəbul edilməsi ailənin möhkəmliyinə, onun vəzifə və funksiyalarının yerinə yetirilməsinə dəyərli töhfələr verəcək, vəzifə və öhdəliklərin konkret subyekt, ailə idarəçiliyini həyata keçirən şəxs tərəfindən təmin olunmasına hüquqi əsas verəcəkdir.

Ailə, qadın və uşaq hüquqlarının və azadlıqlarının etibarlı təmin edilməsi sahəsində zəruri olan normativ-hüquqi baza yaradılmış, təşkilati mexanizmlər təkmilləşdirilmişdir. Son illər ailə zorakılığının artması beynəlxalq səviyyədə narahatçılıq yaratmışdır. Buna görə də «Məişət zorakılığının qarşısının alınması haqqında» AR-nın 22 iyun 2010-cu il tarixli Qanun qəbul edilmiş və ayrı-ayrı orqanların vəzifələri konkretləşdirilmişdir. Bununla belə tədqiqat zamanı dünya təcrübəsinə, cinayət-hüquq nəzəriyyəsinə istinadən qanunun adının dəyişdirilib, «Ailə zorakılığının qarşısının alınması haqqında» AR-nın Qanunu kimi adlandırılması təklif edilmişdir. «Məişət zorakılığı» əvəzinə «ailə zorakılığı» ifadəsinin işlədilməsi, belə əməllərin düzgün tətbiqi və təfsiri üçün əhəmiyyətli rol oynayacaqdır.

Ailənin cəmiyyətin özəyi olaraq hüquqi, sosial, siyasi, iqtisadi, mənəvi, əxlaqi, tərbiyəvi, təşkilati rolunun vaxtaşırı olaraq elmi-nəzəri tədqiqinin aparılması vacib və əhəmiyyətli hesab olunmalıdır. Ailə daim dövlətin himayəsində və diqqətində saxlanılmalı, onun sosial təminatlarının, maddi-texniki bazasının möhkəmləndirilməsi, çoxuşaqlı ailələrin dövlət himayəsinə götürülməsi, doğum evlərinin, uşaq xəstəxanalarının, bağçaların, orta və ali təhsil müəssisələrinin maddi-texniki

bazasının və kadr potensialının möhkəmləndirilməsi vacib hesab edilmişdir. Doğulmuş hər bir uşağa görə müavinətlərin artırılması, «ailə kapitalı»nın təsisi, uşaqlı ailələrin dövlət səviyyəsində mənzillə təmin edilməsi, uşaq tərbiyə və sağlamlıq müəssisələrinin mövcud tələblər baxımından geniş şəbəkəsinin təkmilləşdirilməsi və anaların sosial təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması vacibdir. Ölkədə uzunmüddətli dövr üçün «Azərbaycan ailəsinin İnkişaf Strategiyası»nın və «Uşaq Strategiyası»nın hazırlanması və həyata keçirilməsi faydalı olacaqdır. Bu Strategiyalar əsasında uzunmüddətli dövr və illər üzrə Dövlət Proqramlarının hazırlanması və həyata keçirilməsi ailə problemlərinin uğurlu həllinə dəyərli töhfələr verə bilər.

Qloballaşan dünyada ailə, qadın və uşaq hüquqlarının müdafiəsi və mühafizəsinin problemləri gündən-günə artmaqda və mürəkkəbləşməkdədir. Hüquqi dövlət quran ölkəmizdə dövlət və hökumət, yerli özünüidarə orqanları, vətəndaş cəmiyyəti təsisatları, insan hüquq müdafiəçiləri, beynəlxalq təşkilatlarla birlikdə bu məsələləri vaxtaşırı olaraq öyrənir, onun inkişaf meyllərini və təzahürlərini təsnifatlaşdırır və diqqətin bu istiqamətlərə yönəldilməsini təmin edir. Bu fəaliyyətin səmərəli şəkildə davam etdirilməsinin vacibliyi əsaslandırılır.

Dissertasiya işinin beşinci fəslinin sonuncu 5.2 yarımfəsli «Azərbaycan Respublikasında ailə institutunun konstitusiya və beynəlxalq hüquqi statusunun təkmilləşdirilməsi problemləri»nə həsr edilmişdir. Bu yarımfəslin tədqiqatının aparılması, problemin beynəlxalq və milli səviyyədə dərindən öyrənilməsinin vacibliyini şərtləndirir. Müstəqillik illərində beynəlxalq təcrübə əsasında ailə institutunun konstitusiya və beynəlxalq hüquqi statusunun təkmilləşdirilməsini, bu sahədə təzahürlərə vaxtında və adekvat cavab verilməsini tələb edir. Bu bir reallıqdır ki, Azərbaycan Respublikasında ailənin, qadının və uşağın konstitusiya statusunun daha da təkmilləşdirilməsi sahəsində həyata keçirilən üç referendum əsasında məcəllələrə və başqa normativ-hüquqi aktlara edilmiş dəyişikliklər, sistemli və ardıcıl olaraq davam etdirilmişdir. Ailənin hüquqlarının, azadlıqlarının və vəzifələrinin qorunmasına dövlətin nəzarət etməsi müddəası qanunvericilikdə nəzərdə tutulmasına baxmayaraq, təəssüf ki, bu nəzarətin mexanizmləri, həyata keçirilməsinin normativ əsasları, üsul və vasitələri və görüləcək təsirli tədbirlərin müasir və konkret müddəaları indiyə qədər müəyyən edilməmişdir. Buna görə də ailənin hüquqlarının, azadlıqlarının və vəzifələrinin icrasına dövlət nəzarət mexanizmlərinin hazırlanması üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti daha da təkmilləşdirilməli və koordinasiya olunmalıdır. Komitənin adının «Azərbaycan Respublikasının Ailə Problemləri üzrə Dövlət Komitəsi» kimi adlandırılması əsaslandırılmışdır.

Ailənin və ailə üzvlərinin bir yerdə, bir mənzildə, bir evdə yaşamadığı, ümumi ailə təsərrüfatını birgə idarə etmədiyi, uşaqların tərbiyyəsinin birgə həyata keçirmədiyi və onların birgə saxlanılmadığı hallarda, ailənin bütövlüyünü və uzun ömürlülüyünü qorumaq və möhkəmləndirmək kifayət qədər çətindir. Boşanmaların mühüm səbəblərindən biri də məhz elə budur. Məsələn, Almaniya Mülki Məcəlləsinin 1567 §-da boşanma barədə iddia qaldıran tərəf, eyni zamanda ər və

arvadın ən azı bir il ayrılıqda yaşadığını sübut etməsələr, məhkəmələr qaldırılan iddianı təmin edə bilməzlər. Bütün bunlar onu göstərir ki, nikah münasibətində olan ərin və arvadın ailədə, bir yerdə, bir evdə, bir mənzildə yaşaması, ailənin daim möhkəmləndirilməsi üçün çox vacibdir. Əgər ailə üzvlərinin - ərin və ya arvadın iş yeri, sənət və ya məşğuliyyət seçmək sahəsində razılığını qarşılıqlı güzəşt əsasında həll etmək mümkündürsə, ərin və arvadın fərqli yaşayış yeri, yaşayış mənzili və ya evi seçməsi yolverilməzdir. Bu gələcəkdə ailənin dağılması və uşaqların tərbiyə funksiyasının birlikdə yerinə yetirilməsi hüququnun pozulmasına gətirib çıxara bilər. Bütün bunlar nəzərə alınaraq Ailə Məcəlləsinin 1.3-cü maddəsində, «zəruriliyindən» sözündən sonra «valideynlərin və uşaqların bir yerdə yaşamaq hüququnun təmin olunması» söz birləşməsinin əlavə edilməsi təklif olunmuşdur. Hesab edirik ki, bu nəzəri və təcrübi baxımdan olduqca əhəmiyyətli nəticələr verəcəkdir.

Azərbaycanın beynəlxalq statusunun və beynəlxalq əlaqələrinin gündən-günə genişləndiyi bir vəziyyətdə Ailə Məcəlləsinin birinci fəslinə aşağıdakı məzmunda «5a» maddəsinin əlavə edilməsi təklif edilir:

«Maddə 5a. Əgər AR-nın ailə qanunvericiliyi ilə, AR-nın tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydalar arasında fərqli hallar aşkar edilərsə, bu zaman beynəlxalq müqavilələrdə müəyyən edilmiş qaydalar tətbiq edilir».

Tədqiqat zamanı ailə və ailə münasibətləri ilə əlaqədar olaraq beynəlxalq və milli hüquq normaları geniş tədqiq edilmiş, onların qüsurları üzə çıxarılmış və müvafiq təkliflər verilmişdir. Bununla belə tədqiqat zamanı AR-nın Ailə Məcəlləsində, eləcə də hər hansı bir hüquq normasında ailənin hüquqlarının, azadlıqlarının və vəzifələrinin konkret olaraq əlahiddə şəkildə öz ifadəsini tapmaması, ailə kimi mühüm əhəmiyyət kəsb edən bir institutun, bir təsisatın, bir birliyin statusu üçün yolverilməzdir. Buna görə də «Ailənin hüquqları, azadlıqları və vəzifələri» adlı normanın Ailə Məcəlləsinin 6a maddəsi adı altında verilməsi vacib hesab edilmişdir:

«Maddə 6a. Ailənin hüquqları, azadlıqları və vəzifələri

Qadının və kişinin biofizioloji tələbatını ödəmək, ailə qurmaq məqsədilə könüllü yaratdıqları ailə - insan birliyi və ya ittifaqı, ictimai və hüquq münasibətlərinin subyekti olaraq azadlıq hüququ, mülkiyyət hüququ, bərabərlik hüququ, hüquq və azadlıqların məhkəmə təminatı hüququ, birləşmək hüququ, siyasi sığınacaq almaq hüququ, azad sahibkarlıq hüququ, yaşayış yeri seçmək hüququ, aclıqdan qorunmaq hüququ, ölkəni tərk etmək hüququ, sosial sığorta hüququ, şəxsi və mənzil toxunulmazlığı hüququ, istirahət hüququ, ailəni qorumaq və təhlükəsiz yaşamaq hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, təhsil hüququ, internetdən və informasiya texnologiyalarından istifadə etmək hüququ, sağlamlığını qorumaq hüququ, mənzil hüququ, övlada sahib olmaq hüququ, ailənin şərəf və ləyaqətinin müdafiə etmək hüququ, ailə üzvlərin birinin digərinə - özünə, arvadına (ərinə), yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi, uşaqların qayğısına qalmaq, onları sağlam böyütmək, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etmək, müstəqil həyata

hazırlamaq, ailə tərbiyəsinə üstünlük vermək, onların rifahına və inkişafına qayğı göstərmək, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarının və mənafelərinin müdafiəsini təmin etmək, uşaqları Vətənə sədaqət və məhəbbət ruhunda tərbiyə etmək, ana və uşaqların mənafeyinin hərtərəfli müdafiəsi, hər bir uşağın xoşbəxt həyatının təmin edilməsi, ailə münasibətlərində zərərli adətlərin aradan qaldırılması, uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissinin tərbiyə edilməsi, ailə üzvləri olan valideynlərin öz uşaqlarını saxlamaq borcu, valideynlər, həmçinin əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamaq, yetkinlik yaşına çatmış övladların maddi yardıma ehtiyacı olan, əmək qabiliyyəti olmayan valideynlərini saxlamaq, onlara qayğı göstərmək, hər bir ailə üzvünün öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və ümumiyyətlə digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmağa haqlı hesab edilməyən hüquqları, azadlıqları və vəzifələri vardır. Ailə dövlətin xüsusi himayəsində olmaqla onun statusunun - hüquqlarının, azadlıqlarının və vəzifələrinin qorunmasına dövlət nəzarət edir».

Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr hüquq sistemimizin tərkib hissəsi olduğundan və onların üstünlüyü tanındığından, Ailə Məcəlləsinin 1.1 maddəsində «ibarətdir» sözündən sonra aşağıdakı məzmunlu mətnin əlavə edilməsi təklif edilir:

«Belə beynəlxalq müqavilələr, məzmunu dəyişdirilmədən, müəyyən qaydada toplularda (külliyyatlarda) birləşdirilmək yolu ilə inkorporasiya edilir».

**Dissertasiyanın nəticə hissəsində** tədqiqata yekun vurulmuş və onun əsas nəticələri, eləcə də ailənin və nikahın konstitusiya hüquqi statusunun təkmilləşdirilməsi ilə bağlı fikir və mülahizələr əsasında təklif və tövsiyyələr irəli sürülmüşdür.

Dissertasiya mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:

1. Hüquq islahatlarına diqqət artırılmalıdır // Qafqaz Universitetində keçirilən Beynəlxalq Elmi Konfransın materialları. Aprel, 2010, s.31-32
2. Əlillərin sosial müdafiəsi sahəsində hüquq islahatlarının əsas istiqamətləri. Monoqrafiya. B., «Təknur» nəşriyyatı, 2010. 119 səh. (7.2 ç/v)
3. İcbari tibbi sığortanın hüquqi tənzimlənməsi: milli və beynəlxalq təcrübə. Monoqrafiya. B., «Elm» nəşriyyatı, 2011. 155 səh. (9.5 ç/v)
4. Uşaq hüquqları: beynəlxalq və milli hüquqda // «Dövlət və hüquq quruculuğunun aktual problemləri» mövzusunda II respublika elmi-praktik konfransın materialları. I cild. BDU. Bakı, may 2011, s.37-42
5. Uşaq cinayətkarlığı ilə mübarizə: milli və beynəlxalq təcrübə // «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» adlı Beynəlxalq konfransın materialları. I cild. Bakı, 10 may 2011, s.305-310

6. Beynəlxalq və milli hüquqda uşaq cinayətkarlığı ilə mübarizə məsələləri // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri. №1 (16). 2011, s.335-342

7. Uluslararası ve ulusal hukukta çocuk hakları: mahiyeti ve insan hakları sisteminde yeri // TURAN Stratejik Araştırmalar Merkezi. Uluslararsı Bilimsel Hakemli Mevsimlik dergi. 3 cilt, 11 sayı. Türkiye, Konya, 2011, s.27-33

8. Cəmiyyətdə ailənin rolu gücləndirilməlidir // «Hüquq elminin müasir problemləri» mövzusunda I respublika konfransının materialları. 17-18 oktyabr 2011, s.64-68

9. Ekstremal şəraitlərdə qadın və uşaq hüquqlarının mühafizəsi // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri. № 2 (17). B., 2011, s.284-289

10. Məişət zorakılığına qarşı mübarizədə ailənin rolu // «Adət-ənənələrimiz və müasirlik baxımından bir dəyər olaraq ailə» adlı Beynəlxalq elmi konfransın materialları. «Da» jurnalı (həmmüəlliflə). Bakı, 2011 s.30-41

11. Dövlət idarəçiliyinin səmərəliliyi – ailə problemlərinin həllinin mühüm vasitəsi kimi // «Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları» adlı beynəlxalq elmi konfransın materialları. 05-06 dekabr 2011. B., 2012, s.543-551

12. Beynəlxalq və milli hüquqda uşaq hüquqları və onların müdafiəsi. Monoqrafiya B., «Təknur» nəşriyyatı, 2012. 190 səh. (12 ç/v)

13. Гарантии прав женщин и детей в экстремальных условиях // RF-nın Oryol şəhərində keçirilən XIV Beynəlxalq elmi konfransın materialları. RF, 2012, s.26-31

14. Müstəqillik illəri – uşaq hüquqlarının müdafiəsinin intibah dövrü kimi // Beynəlxalq elmi konfransın materialları. B., 2012. s.178-181

15. Qadın və uşaq hüquqlarının qorunması dövrümüzün aktual problem kimi // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Əsərləri. № 1 (18). B., 2012, s.259-264

16. Kadın ve çocuk haklarının korunmasına yönelik tehdit olarak Dağlık Karabağ sorunu // 04.06.2012-ci ildə «Hükuk biliminin güncel sorunları» III. Uluslararası kongre bildiri kitabı. Cilt 1 (Kamu hukuku).. Türkiyə, Samsun, 2012, s.323-332

17. Heydər Əliyevin hüquqi dövlət quruculuğu // Azərbaycan Müəllimlər İnstitutu ilə Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun birgə keçirdiyi respublika elmi konfransının materialları. B., 2012 (həmmüəlliflə), s.45-53

18. Yaşamaq və ölmək anının müəyyən edilməsində zaman meyarı // «Azərbaycanda hüquqi dövlət quruculuğu və qanunçuluq-2020: gələcəyə baxış» mövzusunda Beynəlxalq konfransın materialları (11-12 iyun), (həmmüəlliflə). Bakı, 2012, s.15-27

19. Məişət zorakılığına qarşı mübarizədə ailənin rolu gücləndirilməlidir // Respublika elmi konfransının məqalələr toplusu. B., 2013, s.208-216

20. Heydər Əliyevin Azərbaycan qanunvericiliyində qadın hüquqlarinin təsbiti sahəsində rolu // Beynəlxalq elmi-praktik Konfransın materialları. Bakı, 6 may 2013, s.104-110

21. Qadın hüquqları – insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi kimi // «Hüquq elminin müasir problemləri» mövzusunda III Respublika konfransının materialları. B., 14-15 may 2013, s.105-110

22. Safeguard of women and children's rights in extreme conditions // AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri, 2013, 1(20), s. 143-150

23. Azərbaycanda qadın hüquqları və azadlıqları (konstitusiya və beynəlxalq hüquqi təhlil). Monoqrafiya. B., «Hüquq ədəbiyyatı» nəş., 2014, 346 səh. (22 ç/v)

24. İnsan hüquqları kontekstində qadının mahiyyəti və səciyyəvi xüsusiyyətləri // «Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri» mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2014, s.102-112

25. Azərbaycanda qadın hüquqlanın səciyyəvi xüsusiyyətləri haqqında // Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları. Bakı, 6-7 may 2014-cü il, s.105-114

26. Heydər Əliyev və Azərbaycan ailəsi // Elmi-praktik konfransın materialları. B., 8 may 2014, s.140-149

27. Qadın cinayətkarlığının profilaktikasina dair // «Qanun» hüquq jurnalı, №6 (236), 2014, s. 35-43

28. Qadın hüquqlarinin tarixinə dair // «Qanun» hüquq jurnalı, №7 (237), 2014, s.19-28

29. Qadın hüquqları: beynəlxalq və milli hüquqda // «Qanun» hüquq jurnalı, № 8 (238), 2014, s.9-25

30. Qadın hüquqlarının xüsusiyyətləri // «Qanun» hüquq jurnalı, №9 (239), 2014, s.17-28

31. İnsan və qadın hüquqlarının mahiyyəti // «Qanun» hüquq jurnalı, №10 (240), 2014, s.10-18

32. Azərbaycanda qadın hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirməlidir // «Qanun» hüquq jurnalı. № 12 (242). 2014, s.9-19

33. Azərbaycan Respublikasında beynəlxalq hüququn dinamikasi və aktual problemləri // AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun «Müasir dövrdə beynəlxalq münasibətlər və beynəlxalq hüququn bəzi problemləri» mövzusunda respublika elmi konfransının materialları. B., 2014. s.193-228 (2,2 ç/v)

34. İnsan və qadın hüquqlarının mahiyyəti // «Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası» kontekstində insan haqlarının səmərəli müdafiəsi» mövzusunda 1-ci Beynəlxalq elmi konfransın materialları, B., 2014. s. 155-167

35. Azərbaycanda qadın hüquqlarının inkişaf dinamikası // «Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri: fəlsəfi, sosial və hüquqi təhlil və

proqnozlaşdırma» mövzusunda Beynəlxalq elmi konfransın materialları. 23-24 oktyabr 2014-cü il, s.224-229

36. Qadın hüquqlarının beynəlxalq hüquqda tənzimlənməsi problemləri // Qafqaz Universitetinin əsərləri. Cild 2 №1. 2014-cü il, s.96-103

37. Regional cinayətkarlığın viktimioloji xüsusiyyətlərinin profilaktiki əhəmiyyəti // «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» mövzusunda II Beynəlxalq elmi-praktik konfransın materialları. B., 2015 (həmmüəlliflə). s.54-65

38. Azərbaycan Respublikası Konstitusiyasının təkmilləşdirilməsinin bəzi problemləri // Azərbaycan Respublikası Konstitusiyasının 20 illiyinə həsr edilmiş «Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusunda V respublika elmi-nəzəri konfransın materialları (7-8 may 2015). B., 2015, s. 124-130

39. Ailənin mənəvi-əxlaqi tərbiyəsində informasiya təhlükəsizliyinin rolu // Beynəlxalq Telekommunikasiya İttifaqının 150 illiyinə həsr olunmuş İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransın materialları. 14 may 2015-ci il, s.47-51

40. Ailə zorakılığı: beynəlxalq və milli hüquqi baxış // «Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» adlı III beynəlxalq elmi-praktik konfransın materialları. B., 2015, s.227-238

41. Дефиниция женщин: юридические и социальный анализ // РФ Журнал «Государство и право», № 8, 2015, с.102-106

42. Safeguard of women and children's rights in extreme conditions // Журнал «Південноукраїнський правничий часопис». Киев, № 2, 2015, с.81-84

43. Гарантии прав женщин и детей в экстремальных условиях // Журнал «Наука и жизнь Казахстана». Астана, 2015. с.23-26

44. Azerbaycan Hukukunda Evlenme Kavramı ve Kadının Ailedeki Hukuki Konumu // Türkiyə Cümhuriyyəti, Melikşah Üniversitesinin dergisi. Kayseri şəhəri. Cilt 4, Sayı 2. 2015. s.175-192

45. İnformasiya cəmiyyətində ailənin və əxlaqın hüquqi tənzimlənməsinə diqqət artırılmalıdır // «Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» adlı Elmi Əsərlər məcmuəsi. B., № 63, 2015. s. 199-205

46. Erməni seperatizmi qadın və uşaq hüquqlarına təhdid kimi // «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., 2015. № 3, s.62-70

47. Ailə tərbiyəsində informasiya təhlükəsizliyinin rolu // Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş «Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu» mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. II cild. B., 5 may 2015-ci il, s.331-337

48. Ailə institutunun konstitusiya-hüquqi statusu // AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri. B., № 1 (24), 2015, s.219-234

49. Qadının analıq hüququ və onun mühafizəsi // AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun Elmi əsərləri. B., № 2 (25), 2015, s.217-225
50. Ailə və ailədaxili zorakılıq: hüquqi təhlil. Monoqrafiya. B., «Hüquq ədəbiyyatı» nəş., Bakı, 2015. 206 səh. (13 ç/v)
51. İnformasiya cəmiyyətində ana və uşaq hüquqlarının müdafiəsi // Qafqaz Universitetinin elmi əsərləri. 2015. № 1. Cild 3, s.131-139
52. Qadının Konstitusiya statusu: hüquqi və bioloji aspektlər // «Azərbaycanda ailə və gender məsələləri: mövcud vəziyyət və problemlərin həlli yolları» mövzusunda IV respublika konfransının materialları. 3 may 2015. s.123-141
53. Nikah hüququ // «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı. B., № 4 (52), 2015, s.185-192
54. Uşaq hüquqları: beynəlxalq və milli hüquqi baxış // «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., 2015. № 4, s.82-91
55. The constitutional and legal status of the institution of family // International Journal of Economics and Society. Volume 1, Issue 4. December 2015. USA, p.60-67
56. Право женщин на материнство // Журнал «Наука и правоохорона» Державый наукового-дослидний университет МВС Украины. № 4 (30), 2015, s.91-100
57. Юридическая и социальная дефиниция семьи // РФ Журнал «Мониторинг правоприменения». № 4, Москва, 2015, s.33-37
58. «Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusunda VI respublika elmi-nəzəri konfransın materialları (5-6 may). B., 2016. s.145-149
59. Ailə zorakılığı: sosial, siyasi və psixoloji təhlil. «Ailə-məişət zorakılığının problemləri» mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. B., 2016. s.210-223
60. Heydər Əliyev milli Konstitusiyamızın yaradıcısı və banisidir // «İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatının aktual problemləri» mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. B., 2016 (həmmüəlliflə). s.111-121
61. Конституционно-правовой статус института семьи // РФ Журнал «Закон и право». № 2, 2016. Издательство «Юнити-Дана», г.Москва, s.30-34
62. Analığın və atalığın hüquqi təhlili // «Qanun» hüquq jurnalı, №5 (259), 2016, s.81-89
63. Правовой статус женщин // Журнал «Юридический вестник» Национального Авиационного Университета Украины. № 1 (38), 2016, s.32-39
64. Ailə zorakılığına sosial və psixoloji baxış // «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., 2016. № 1, s.127-141
65. Право женщин на материнство по Азербайджанском законодательство // «Qanun» hüquq jurnalı, № 6 (260), 2016, s.73-82

66. Ailənin hüquqları haqqında // «Qanun» hüquq jurnalı, № 7 (261), 2016, s.104-115

67. Azərbaycan Respublikasında müasir ailə institutu: hüquqi təhlil. Monoqrafiya. B., «Hüquq ədəbiyyatı» nəş., 2016. 312 səh. (19.5 ç/v)

68. Правовой статус женщины // «Системы власти и права автохтонных народов Кавказа» VI Межд. научно – практической конференции г. Нальчик, 18-21 may 2016-cı il, s. 242-251

69. Maternity rights protection // International Journal of Economics And Society. Volume 2, Issue 6. July 2016. USA. s. 83-96

70. Ailənin statusu // «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., 2016. № 2-3, s. 138-149

71. Ana və uşaq hüquqlarının müdafiəsi // «Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» adlı elmi əsərlər məcmuəsi. B., № 64, 2016, s.37-42

72. «Multikulturalizm ili» kontekstində ailə zorakılığı // «Multikulturalizmin Azərbaycan modeli: fəlsəfi, sosioloji və hüquqi baxış» mövzusunda beynəlxalq konfransın materialları. 2016, s.324-335

73. Защита прав материнства // Вестник Карагандинского Университета. № 3 (83), 2016, s.72-85

74. Социальный институт семья // Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu» mövzusunda BDU-da keçirilən Beynəlxalq elmi konfransın materialları. İki cilddə. II cild. B., 3 iyun 2016, s.259-263

75. Konstitusiya və ailə hüququnda analıq və atalığın definisiyasına müasir baxış // «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., 2016. № 4, s.81-91

76. Социальные и биологические основы правового статуса женщин // «Вестник» национального университета «Львовская политехника» серия юридических наук. № 855. С.186-192

77. Maternity rights protection // Актуальные вопросы на семейного и наследственного право. София, 2017. P.418-440

78. Azərbaycan ailə modeli // «Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» adlı elmi əsərlər məcmuəsi. B., № 65, 2017. S.76-84

79. Nikah əqdi – ailənin hüquqi əsası kimi // «Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., № 2, 2017. S.31-41

80. Ailə zorakılığına görə İstanbul Konvensiyası və Azərbaycan Respublikasının Qanunvericiliyi //»Nəqliyyat hüququ» elmi-nəzəri, təcrübi jurnal. B., 2017. № 2, s.36-46

81. Azərbaycanın ailə modeli//»Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» adlı elmi əsərlər məcmuəsi. B., № 66, 2018, s.92-101

82. Family violence in accordance with Istanbul Convention and the Azerbaijani legislation // «Qanun» jurnalı, 2018, s.3-11

83. The constitutional and legal status of the Institution of family //»The Journal of Juristic Papyrology» İSSN: 0075-4277 (University of Warsaw), 2018, s.21-35

## РЕЗЮМЕ

Диссертация Саида Бахрам гызы Гасанзаде представленная на соискание ученой степени доктора юридических наук по специальностий 5607.01 – «Конституционное право и муниципальное право», 5603.01 – «Международное право; права человека» является цельным самостоятельным законченным научно-исследовательским трудом. Диссертационная работа, состоящая из пяти глав, охватывающих десять параграфов, служит раскрытию сущности исследуемой проблемы. План раскрывает суть и проблемы основной темы и указывает пути их решения.

Во введении обосновывается актуальность диссертационной темы, освещается степень её научной разработанности, объект и предмет диссертации, указаны цели и задачи. В ходе исследования диссертационной работы даются комментарии к используемой научной методике и теоретическим основам работы. Как результат проведенного исследования автором проводится подробный обзор существующей литературы, обосновывается научная новизна выносимых на защиту основных положений. Также указаны научная и практическая значимость работы, даны рекомендации по результатам применения на практике, представлена информация об апробации. В конце работы отражена основная структура диссертации.

Первая глава посвящена вопросам «Сущности и эволюции конституционно-правового статуса института семьи в Азербайджанской Республике». Сущность этой темы автор раскрывает в 2-х подглав, входящих в данную главу.

В первом подглаве этой главы автором проводится исследование вопросов сущности и исторической эволюции конституционно-правового статуса института семьи в Азербайджанской Республике.

Второй подглав первой главы работы называется «Международное и национально-правовое сравнение конституционно-правового статуса Азербайджанской семьи».

Вторая глава диссертации называется «Характерные особенности, основные семейные функции и задачи правового статуса Азербайджанской семьи». Эта глава состоит из двух подглавов.

Первый подглав посвящен проблеме конституционно-правовых основ социально-семейных государственных отношений в контексте строительства демократического правового государства.

Второй подглав этой главы посвящен вопросам Азербайджанской национальной модели семьи, основным функциям и задачам семьи, дан их правовой анализ.

Третья глава диссертации охватывает вопросы сравнительный анализ конституционного и международно-правового статуса брака в

Азербайджанской Республике. Эти вопросы освещены в 2-х подглавах, входящих в данную главу.

Так, в первом подглаве раскрыты вопросы брака, как правовой основ международная и национально-правовая институт современной Азербайджанской семьи.

Второй подглав третьей главы посвящен вопросам структуры современной Азербайджанской семьи в условиях глобализации и трансформации, дан их конституционно-правовой анализ.

Четвёртая глава носит название «Конституционно-правовой статус членов семьи в Азербайджанской Республике» . Эта глава также состоит из двух подглавов.

В первом подглаве комментируется сравнительный анализ конституционного и международно-правового статуса женщины-матери как членаАзербайджанской семьи.

Во втором подглаве четвертой главы работы был исследован сравнительный анализ конституционного и международно-правового статуса ребенка, как члена Азербайджанской семьи.

Последняя – пятая глава диссертации, посвящена актуальные проблемы и механизмы защиты конституционного и международно-правового статуса семьи: сравнительный анализ.

В первом подглаве этой главы были исследованы гарантии защиты прав семьи, женщин и детей, международные и национальные механизмы в Азербайджанской Республике: сравнительный анализ. А второй подглав пятой главы посвящен проблемам совершенствования конституционного и международного правового статуса института семьи в Азербайджанской Республике.

В заключительной части работы отражены положения и основное содержание выводов, к которым пришел автор в ходе исследования, также обосновываются мнения и предложения.

# SUMMARY

In the introduction actuality of the thesis theme is substantiated, a degree of its scientific elaboration is elucidated, as well as the object and subject of the thesis, the goals and tasks are indicated. In the course of the thesis studying the comments to the used scientific methods and theoretical grounds of the work are given. As a result of carried out research of the author`s work there is made the detailed survey of the scientific novelty and the basic propositions submitted to defence. As well the scientific and practical significance of the work is noted, the recommendations by the results of application in practice are offered, information on approbation is presented. In the end of the work the basic structure of the thesis is reflected.

The thesis work, consisting of five chapters, covering ten paragraphs, serves exposing an essence of the problems under study. The plan foresees determination of the matter and problems of the basic theme and indication of the ways of their decision. Therefore, Chapter I is dedicated to the issues of «The essence and evolution of the constitutional status of a family institute in the Republic of Azerbaijan». To bring to light the main point of this theme, the first Chapter consist of two paragraphs.

The first paragraph of this Chapter envelopes, a study of the issues «The essence and historical evolution of the constitutional and legal status of a family institute in the Republic of Azerbaijan». The second paragraph of Chapter I of the work is titled «Comparison of the constitutional legal status of the Azerbaijani family on the basis of national and international law». The second Chapter of the thesis is titled «The typical features, basic family functions and tasks of the legal status the Azerbaijani family». This chapter consists of two paragraphs.

The first paragraph is dedicated to the problem of «The constitutional and legal foundations of social-family state relations in the context of building a democratic legal state». The second paragraph of this chapter is dedicated to the issues of «The Azerbaijani national model of a family, the basic functions and tasks of a family: the legal analysis».

The third Chapter of the thesis covers the issues of «Comparative analysis of the constituonal and international legal status of the marriage in the republic of Azerbaijan». To study this problem there were determined two paragraphs on legal bases of a family and structure of a family. Thus, in the first paragraph «Marriage as the international and national legal basis of the modern Azerbaijani family» was brought to light.

The second paragraph of the third Chapter is dedicated to the questions of «Structure of a modern Azerbaijani family in conditions of globalization and transformation: the constitutional and legal analysis».

The fourth Chapter was titled «The constitutional and legal status of family members in the Republic of Azerbaijan». This Chapter consists of two paragraphs.

In the first paragraph «Comparative analysis of the constitutional and international legal status of the woman – mother as a member of the Azerbaijani family» is commented.

In the second paragraph of Chapter IV there has been investigated «Comparative analysis of the constitutional and international legal status of the child as a member of the Azerbaijani family».

The final fifth Chapter of the thesis is dedicated to «Topical problems and protection mechanisms of the constitutional and international legal status of the family: comparative analysis».

In the first paragraph of this chapter there was studied «Guarantees and international and national mechanisms of the protection of the rights of the family, woman and child in the Republic of Azerbaijan: comparative analysis».

And the second paragraph of the fifths chapter is delicate to the «Problems of improving the constitutional and international legal status of a family institute in the Republic of Azerbaijan».

In the concluding part of the work there are reflected the provisions and the basic content of the conclusions drawn by the author in the course of research, as well opinions and proposals are grounded.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**САИДА БАХРАМ КЫЗЫ ГАСАНЗАДЕ**

# КОНСТИТУЦИОННО-ПРАВОВОЙ СТАТУС ИНСТИТУТА СЕМЬИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ
**(сравнительный анализ с международным правом)**

***Специальность:*** **5607.01 – «Конституционное право и муниципальное право»,
5603.01 – «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора юридических наук**

**Баку – 2018**